# ORTA AYLIQ ƏMƏKHAQQI ARTACAQ

Azərbaycanda orta aylıq əməkhaqqı 1 200 manat həddinə yaxınlaşır. Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlara əsasən, bu ilin yanvar-avqust aylarında ölkə üzrə orta aylıq əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 7,2% artaraq 1 173 manat təşkil edib. Əhalinin gəlirlərindəki bu artım dinamikası fonunda ölkə rəhbərliyi tərəfindən növbəti sosial addımın atılacağı gözlənilir.



Prezidentin müvafiq tapşırığına əsasən, gələn il ölkədə minimum əməkhaqqının artırılması nəzərdə tutulur. Bəs minimum əməkhaqqının qaldırılması gələn il orta aylıq əməkhaqqının daha da yüksəlməsinə necə təsir edəcək? Millət vəkili Vüqar Bayramov bildirdi ki, minimum əməkhaqqının artırılması ölkə üzrə orta aylıq əməkhaqqı məbləğlərinə birbaşa təsir göstərəcək.

SƏHİFƏ 6-da



## RƏQƏMSAL İPƏK YOLUNDA MÜHÜM TƏŞƏBBÜS

"Rəqəmsal İpək Yolu" təşəbbüsü çərçivəsində Azərbaycan və Qazaxıstan tərəfindən reallaşdırılan Trans-Xəzər Fiber-Optik Kabel Xətti layihəsi Asiya ilə Avropa arasında rəqəmsal qarşılıqlı fəaliyyət üçün yeni imkanlar yaradır.

SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

17 OKTYABR ŞƏNBƏ 2026 № 39 (4290) Qiyməti - 60 qəpik www.kaspi.az






## YERLİ MƏHSULLARIMIZIN AVROPA SINAĞI

Avropa İttifaqı bazarına çıxış əldə edən Azərbaycan müəssisələrinin sayı 2-dən 12-yə yüksəlib. Ekspertlər hesab edirlər ki, sayın artmasına baxmayaraq, bu istiqamətdə görüləcək işlər də az deyil.

SƏHİFƏ 7-də

AQEM İNSTİTUSİONAL VƏ HÜQUQİ BAXIMDAN DAHA GÜCLÜDÜR

# DAHA İKİ İL AQEM-Ə SƏDRLİK EDƏCƏYİK




Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 7-ci Zirvə Görüşü keçirilib. Azərbaycanın sədrliyinin daha iki il müddətinə uzadılması təklifi yekdilliklə dəstəklənib.

**AZƏRBAYCAN BİRLƏŞDİRİCİ MƏRKƏZ KİMİ**

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Avrasiya məkanında birləşdirici mərkəz kimi getdikcə daha böyük rol oynayır. Ölkəmizin bir çox dövlətlə siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığı regionumuzda təhlükəsizlik sistemini möhkəmləndirir.

**AZƏRBAYCAN AQEM-İ XEYLİ GÜCLƏNDİRİB**

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan AQEM-ə iki il ərzində sədrliyi müddətində onun gücləndirilməsinə prioritet diqqət ayırıb və nəqliyyat, bağlantılar, rəqəmsallaşma, ətraf mühitin mühafizəsi, turizm, təhsil, elm və digər sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edib.

SƏHİFƏ 3-də



## ÖDƏNİŞLİ YOLLAR EFFEKTLİDİRMİ?

Ödənişli yollar sürücülərə alternativ marşrut seçimi təqdim etməklə yanaşı, daha yüksək texniki göstəricilərə malik yol infrastrukturu vasitəsilə hərəkətin rahatlığının və təhlükəsizliyinin artırılmasına da xidmət edir.

SƏHİFƏ 9-də



## OVÇULUĞA MARAQ AZALIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən indiyədək, ümumilikdə 5073 vətəndaşa ovçuluq bileti verilib. Son illərin statistikası isə ovçuluq bileti alanların sayında ardıcıl azalma olduğunu göstərir.

SƏHİFƏ 12-də

"Tarakanlar Partiyası" diqqət mərkəzində

# SATİRA SİYASİ GÜCƏ ÇEVRİLİR




Hindistanda gənclərin başlatdığı etiraz dalğası ölkənin gündəmini zəbt edib. İşsizlik, ali məktəblərə qəbul imtahanlarında yol verilən qanun pozuntularına etiraz kimi meydana çıxan hərəkat indi daha geniş siyasi müstəviyə keçib. Nümayişlərə bu yaxınlarda yaradılmış "Tarakanlar Partiyası" rəhbərlik edir. Partiya Hindistanın hakimiyyət strukturlarına qarşı narazılığın ifadə olunduğu platformalardan birinə çevrilib.

SƏHİFƏ 5-də



## XARİCDƏ İŞ ELANI İLƏ BAŞLAYAN RİSK

Yüksək maaş vədi ilə xaricə aparılan, sonradan çətin vəziyyətdə qoyulan şəxslərlə bağlı şikayətlər artır. İş tapmaq ümidi ilə başqa ölkələrə gedənlər bəzən orada nə iş, nə də yaşayış yeri ilə təmin olunurlar.

SƏHİFƏ 8-də



## LİMON BAZARININ TURŞ REALLIĞI

Limon istehsalı daxili tələbatı tam qarşılaya bilmir. İdxalın həcmi azalsa da, xaricdən limon gətirilməsi davam edir. Xaricdən gətirilən limonun daha ucuz olması yerli istehsalçılara əlavə problemlər yaradır.

SƏHİFƏ 11-də



Mətbuat Şurasının yeni sədri seçildi

SƏHİFƏ 10-da



Yaşlı nəsil rəqəmsal dünyada

SƏHİFƏ 14-də



Gözəllik arzusu faciəyə çevriləndə

SƏHİFƏ 13-də



Bahalı zövqə maraq artıb

SƏHİFƏ 15-də



Gələcək üçün ümidverici nəticələr

SƏHİFƏ 16-da



# Prezident səfirlərlə görüşüb

Prezident İlham Əliyev oktyabrın 16-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abhay Kumarı qəbul edib. Səfir etimadnaməsini dövlət başçısına təqdim edib.

Abhay Kumar ikitərəfli münasibətlərin inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib. Söhbət zamanı bu ilin sentyabrında Bişkek şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə Görüşü çərçivəsində dövlətimizin başçısı ilə Hindistanın Baş naziri Narendra Modinin təmasları xatırlanıb.

Görüşdə Azərbaycan və hind xalqları arasında minilliklər boyu tarixi-mədəni əlaqələrin olduğu qeyd edilib, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev oktyabrın 16-da həmçinin Gürcüstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qiorqi Zakaraşvilini də qəbul edib.

Prezident İlham Əliyev bu ilin aprelində Gürcüstana dövlət səfərini və səfər çərçivəsində göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıb. Azərbaycan-Gürcüstan münasibətlərinin zəngin tarixinin və böyük gələcəyinin olduğunu deyən dövlət başçısı iki müstəqil dövlət kimi ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıb, xalqlarımızın qardaşlıq əlaqələrinin olduğunu bildirib.

Qəbula görə minnətdarlığını bildirən Qiorqi Zakaraşvili qardaş Azərbaycana səfir təyin olunmasından və dövlət başçısı ilə görüşdən böyük şərəf hissi duyduğunu deyib. Səfir ölkələrimizin strateji tərəfdaş, xalqlarımızın isə bir-birinə yaxın olduqlarını vurğulayıb.

O, fəaliyyəti dövründə Azərbaycanla Gürcüstan arasında tarixən mövcud əməkdaşlığı daha da genişləndirmək üçün səylərini əsirgəməyəcəyini bildirib.

Söhbət zamanı siyasi əlaqələrimizin inkişafından məmnunluq ifadə olunub, iqtisadi-ticari, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

# RƏQƏMSAL İPƏK YOLUNDA MÜHÜM TƏŞƏBBÜS

**“Rəqəmsal İpək Yolu” təşəbbüsü çərçivəsində Azərbaycan və Qazaxıstan tərəfindən reallaşdırılan Trans-Xəzər Fiber-Optik Kabel Xətti layihəsi Asiya ilə Avropa arasında rəqəmsal qarşılıqlı fəaliyyət üçün yeni imkanlar yaradır. Sumqayıtla Aktau arasında Xəzər dənizinin dibi ilə təxminən 380 kilometrlik kabel xətti çəkilib.**

Azərbaycan və Mərkəzi Asiya arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət dinamika verəcək daha bir mühüm layihə reallaşıb. Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Trans-Xəzər Fiber-Optik Kabel Xəttinin onlayn formatda rəsmi açılışını ediblər.

### ASİYA İLƏ AVROPA ARASINDA RƏQƏMSAL QARŞILIQLI FƏALİYYƏT

Qeyd edək ki, “Rəqəmsal İpək Yolu” təşəbbüsü çərçivəsində Azərbaycan və Qazaxıstan tərəfindən reallaşdırılan bu layihə Asiya ilə Avropa arasında rəqəmsal qarşılıqlı fəaliyyət üçün yeni imkanlar yaradır. Sumqayıtla Aktau arasında Xəzər dənizinin dibi ilə təxminən 380 kilometrlik kabel xətti çəkilib. Bu xətt saniyədə 400 terabitdən çox ötürücülük qabiliyyətinə malikdir. Xəttin istismara buraxılması ilə Orta Dəhlizin təkcə nəqliyyat deyil, həm də rəqəmsal baxımdan strateji əhəmiyyəti artacaq. Yeni marşrut Çin və Mərkəzi Asiyadan məlumatların Azərbaycan, Qazaxıstan və Gürcüstan, daha sonra Qara dəniz və ya Türkiyə vasitəsilə Avropaya ötürülməsinə imkan verəcək. Bu, beynəlxalq məlumat mübadiləsi imkanlarını genişləndirəcək və rəqəmsal kommunikasiyaların dayanıqlılığını artıracaq. Eyni zamanda, ölkələrimiz yalnız istehlakçı deyil, həm də strateji rəqəmsal infrastruktur və xidmətlərin tədarükçülərinə çevrilir.




## “Bu, beynəlxalq əks-səda doğuracaq çox vacib layihədir”

Prezident Kasım-Jomart Tokayev bildirib ki, bu, beynəlxalq əks-səda doğuracaq çox vacib layihədir: “Amma ən əsası odur ki, bu, yeni dəhliz növüdür. Bu, həqiqətən də sadəcə nəqliyyat dəhlizi deyil, müasir dövrə, rəqəmsallaşma dövrünə uyğun yenilikdir və tamamilə yeni əməkdaşlıq növüdür”.

Prezident İlham Əliyev deyib ki, Trans-Xəzər Fiber-Optik Kabel Xətti Mərkəzi Asiya ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsində daha bir addımdır: “Hamıya yaxşı məlumdur ki, ötən ilin noyabrında Azərbaycan Məşvərət görüşlərinin tamhüquqlu üzvü qəbul edildi və artıq bu il mən yaxın vaxtlarda birliyin tamhüquqlu üzvü kimi iştirak etdim. Bu, əməkdaşlığın gücləndirilməsi işinə növbəti töhfədir. Çünki bu kabeldən Mərkəzi Asiya, Cənubi Qafqaz və daha geniş coğrafiyanın ölkələri istifadə edəcək. Beləliklə, bu gün biz qlobal layihəyə start verdik”.

## Xəzər dənizində ilk fiber-optik kabel xətti

Layihənin xüsusi əhəmiyyət daşıdığını ekspertlər də xüsusi vurğulayırlar. Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti, informasiya təhlükəsizliyi üzrə mütəxəssis Rəşad Əliyev AZƏRTAC-a açıqlamasında bildirib ki, Trans-Xəzər fiber-optik kabel xəttinin istifadəyə verilməsi Azərbaycanın beynəlxalq rəqəmsal hab kimi mövqeyinin gücləndirilməsi, məlumatların ötürülməsi imkanlarının genişləndirilməsi və ölkədə məlumat mərkəzlərinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Yeni infrastruktur beynəlxalq məlumat mübadiləsinin genişlənməsinə, rəqəmsal xidmətlərin inkişafına və texnoloji investisiyaların cəlb edilməsinə əlavə imkanlar yaradacaq.



R.Əliyev vurğulayıb ki, Xəzər dənizinin dibi ilə fiber-optik kabel xəttinin çəkilməsi regionun rəqəmsal infrastrukturu baxımından əhəmiyyətli hadisədir: “Bu, Xəzər dənizində ilk fiber-optik kabel xəttidir. Yeni xətt beynəlxalq məlumat axınlarının ötürülməsi zamanı gecikmələrin azaldılmasına və ölkənin beynəlxalq rabitə kanallarının inkişafına töhfə verə bilər. Burada qeyd edilən məsafə üzrə millisaniyələrlə internetin sürəti artacaq. Məsələn, dənizin o tərəfindən olan, həmçinin Çindən və Hindistandan gəlib Avropaya keçən internetlərin arasında millisaniyə fərqi olacaq”.

Ekspertin sözlərinə görə, layihənin reallaşdırılması Azərbaycanın beynəlxalq rəqəmsal hab kimi formalaşmasına da şərait yaradacaq. Beynəlxalq məlumat trafikinin artması Azərbaycanda əlavə məlumat mərkəzlərinin yaradılmasına və mövcud infrastrukturun genişləndirilməsinə ehtiyac formalaşdıra bilər: “Bu isə ölkəyə yeni texnoloji şirkətlərin və xidmət təminatçılarının cəlb edilməsi baxımından əhəmiyyətlidir. Bu səbəbdən də böyük bir layihəyə ehtiyac olacaq, yəni burada artıq bir-iki və ya onlarla əlavə data mərkəzi qurulacaq”.

# DAHA İKİ İL AQEM-Ə SƏDRLİK EDƏCƏYİK

**Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 7-ci Zirvə Görüşü keçirilib. Azərbaycanın sədrliyinin daha iki il müddətinə uzadılması təklifi yekdilliklə dəstəklənib.**




**F.ABASOĞLU**

Oktyabrın 15-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşü keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev bir sıra mühüm mövzulara toxunub.

### AZƏRBAYCAN BİRLƏŞDİRİCİ MƏRKƏZ KİMİ

Prezident qeyd edib ki, coğrafi olaraq Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycan Avrasiya məkanında birləşdirici mərkəz kimi getdikcə daha böyük rol oynayır. Ölkəmizin ikitərəfli və çoxtərəfli formatlar çərçivəsində bir çox dövlətlərlə siyasi, iqtisadi, nəqliyyat, enerji, humanitar sahələrdə əməkdaşlığı öz növbəsində regionumuzda təhlükəsizlik sistemini möhkəmləndirir: "Azərbaycan davamlı olaraq bərabərhüquqluluq, daxili işlərə qarışmama, ölkələrin ərazi bütövlüyünün və suverenliyinin üstünlüyünə əsaslanan müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan dövlətlərarası münaqişələrin həlli məsələsində ikili standartların və seçici yanaşmaların tətbiqi ilə bağlı zərərli praktikaya qarşı fəal və əsaslandırılmış şəkildə çıxış edir".

### ANAXRONİZM VƏ ATAVİZMİN İKİ NÜMUNƏSİ

Keçmiş münaqişəyə də toxunan Prezident İlham Əliyev bildirib ki, Ermənistanın əvvəlki rəhbərliyi - Ermənistanın hər üç keçmiş prezidenti və onların tərəfdarları layiq olduqları cəzanı almayıblar. Ermənistanın hazırkı rəhbərliyi 2018-ci ildən etibarən sələflərinin cinayətkar siyasətini davam etdirib: "Ermənistanın hazırkı Baş naziri 2019-cu ildə o vaxt işğal altında olan Xankəndidə, Qarabağda bəyan etmişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Həmin dövrdə Ermənistanın müdafiə naziri Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə ilə təhdid edirdi. Bütün bu həddsiz həyasızlığa beynəlxalq, dırnaqarası beynəlxalq ictimaiyyət göz yumurdu. Heç kim Ermənistanı işğala, hərbi cinayətlərə, etnik təmizləməyə və qətliama, Azərbaycan xalqının dini müqəddəs yerlərinin təhqir edilməsinə görə qınamadı. BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi qətnamələrin icrasında təkid etmədi, ATƏT laqeyd qaldı. Beynəlxalq münasibətlərdə anaxronizm və atavizmin iki nümunəsi olan Avropa Parlamenti və Avropa Şurası davamlı təcavüz qurbanı olan Azərbaycanı hədəfə alırdı və təcavüzkar Ermənistanı həvəsləndirirdi".

## Bakıdan beynəlxalq qətnamələrin icrası ilə bağlı çağırış

Dövlət başçısı vurğulayıb ki, BMT-nin Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatlarının qəbul etdiyi qərar və qətnamələrin icrasını təmin edən mexanizmlər hazırlanmayana qədər müharibələr və münaqişələr davam edəcək, yeniləri meydana çıxacaq: "Əgər işğal, soyqırımı və etnik təmizləməyə görə Ermənistana vaxtında sanksiyalar tətbiq edilsəydi, Azərbaycan döyüş meydanında erməni faşizminin belini qırmağa məcbur qalmazdı. Təcavüzkarın cəzasız qalması onun həyasızlığının miqyasını yalnız daha da artırırdı. Müharibə bizim seçimimiz olmayıb. Bizi müharibəyə Ermənistan məcbur edib. Onun arxasında dayanan havadarlar isə görünür ki, Azərbaycanın öz suverenliyini və beynəlxalq hüququ güc yolu ilə bərpa edəcəyini düşünmədilər. Amma onların hamısı yanıldı, yəqin onlar bizim qürurlu, azadlıqsevər, adət-ənənələrimiz və əxlaqi dəyərlərimizlə yaşayan xalqımızın xasiyyətini yaxşı tanımırdılar. Biz müharibədə qalib gəldik, işğalçıları torpaqlarımızdan qovduq. Lakin 30 illik əzablar, soyqırımı, şəhər və kəndlərimizin dağıdılmasına görə onlardan qisas almadıq. Biz döyüş meydanında qisas aldıq və Ermənistana sülh təklif etdik. Burada da xalqımızın mənəvi keyfiyyətləri bir daha özünü büruzə verdi. Biz artıq məğlub vəziyyətdə olana zərbə endirməmişik. Biz xalqımızın bu qədər əzabına bais olmuş barbarların və uşaq qatillərinin səviyyəsinə enmədik. Biz sülh təklif etdik və bir ildən bir az çoxdur ki, sülh içində yaşayırıq. Bu sülh hələ də kövrəkdir, onu qorumaq və möhkəmləndirmək lazımdır".

## "Hazırda AQEM institusional baxımdan daha güclüdür"




Prezident bəyan edib ki, Azərbaycan AQEM-ə iki il ərzində sədrliyi müddətində onun gücləndirilməsinə prioritet diqqət ayırıb və nəqliyyat, bağlantılar, rəqəmsallaşma, ətraf mühitin mühafizəsi, turizm, təhsil, elm və digər sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edib: "Bütün üzv dövlətlərin yekdil dəstəyi ilə həyata keçirilmiş müxtəlif təşəbbüslərimiz nəticəsində hazırda AQEM institusional və hüquqi baxımdan daha güclüdür. Üzvlərinin sayı genişlənmişdir və öz coğrafi məkanında təhlükəsizliyin, iqtisadi rifahın və qarşılıqlı anlayışın təşviqi naminə dialoqu və qarşılıqlı fəaliyyəti inkişaf etdirmək üçün imkanları əhəmiyyətli dərəcədə möhkəmlənmişdir. Fürsətdən istifadə edərək, Azərbaycanın AQEM-də sədrliyinin daha iki il müddətinə uzadılması təklifinə dəstək verdiklərinə görə bütün üzv dövlətlərə təşəkkürümü bildirirəm".

Görüşün yüksək səviyyədə təşkilinə görə təşəkkür edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanın təşkilata dinamik sədrliyini təqdir etdiklərini deyib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan nümayəndəsinin AQEM-in Baş katibi vəzifəsinə namizədliyini və Azərbaycan tərəfinin bu təşkilatda sədrliyini 2028-ci ilə qədər davam etdirmək niyyətini dəstəklədiyini bildirib.

Qırğızıstan Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycana lazımi dəstəyi göstərməyə və ümumi fəaliyyətə öz töhfəsini verməyə hazır olduğunu deyib.

İsrail Prezidenti İsxak Hersoq Azərbaycanın sədrliyi dövründə AQEM-i daha da canlandırdığını vurğulayıb.

Çin Xalq Respublikasının xarici işlər naziri Vanq Yi də əldə etdiyi nailiyyətlərə görə Azərbaycanı təbrik edib.

# AZƏRBAYCANIN QLOBAL CƏNUB STRATEGİYASI

**Yeni platformalar çərçivəsində qurulan əlaqələrlə Azərbaycan öz məhsullarının Asiya, Afrika və Latın Amerikası bazarlarına çıxarılması imkanlarını genişləndirə bilər. Buraya logistika, enerji, qarşılıqlı sərmayələr, texnologiya və digər sahələr üzrə əməkdaşlıq perspektivləri də aiddir.**



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Azərbaycanın əldə etdiyi orta güc statusu rəsmi Bakının iqtisadi-siyasi əməkdaşlıq coğrafiyasının da genişlənməsini şərtləndirir. Əvvəlki dövrlərdən fərqli olaraq, Azərbaycan tək regional və yaxın geosiyasi məkanda yerləşən ölkələrlə deyil, həm də daha böyük miqyasda yerləşən ölkələrlə əməkdaşlıq kursuna önəm verməkdədir. Bu proses artıq prioritet istiqamət kimi nəzərdən keçirilir.


### QLOBAL CƏNUB ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR PRİORİTETDİR

Bugünlərdə Qlobal Cənub ölkələrinin təmsilçiləri - Kamboca Krallığının Baş naziri Hun Manet və Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulitin Azərbaycana rəsmi səfərlərinə də bu prizmadan yanaşılmalıdır. Qeyd edək ki, hər iki ölkənin rəhbərləri səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşüblər. Dövlətlərarası və beynəlxalq səviyyədə əməkdaşlıq imkanlarını müzakirə ediblər. Tərəflərin prioritet istiqamət olaraq müəyyənləşdirdikləri sahələr mətbuata birgə bəyanatlar zamanı dövlət rəhbərləri tərəfindən elan edilib.

### ÇOXTƏRƏFLİ MÜSTƏVİDƏ QARŞILIQLI FƏALİYYƏT

Prezident İlham Əliyev Kamboca Krallığının Baş naziri Hun Manet ilə müzakirələrin yekunu olaraq bildirib ki, hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir, bir-birini dəstəkləyir. "Əlbəttə, ticarət və sərmayə qoyuluşu sahələrində hansı işləri görə biləcəyimizi də müəyyənləşdirməliyik. Biz bu imkanları geniş müzakirə etdik, ticarət və investisiya əməkdaşlığımızın praktiki aspektləri ilə məşğul olacaq birgə işçi qrupu yaratdıq. Beləliklə, imkanlar çoxdur. Yeganə manea məsafə ola bilər. Lakin müasir dünyada bu, böyük problem deyil. Digər məsələ məlumat çatışmazlığıdır və biz bu boşluğu aradan qaldırmalıyıq", - Prezident İlham Əliyev bildirib.

Hun Manet isə bəyan edib ki, dünyada vəziyyətin getdikcə mürəkkəbləşdiyi bir şəraitdə regionlar və ölkələr arasında qarşılıqlı fəaliyyət, xüsusilə beynəlxalq arenada daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Kambocanın və Azərbaycanın ikitərəfli əməkdaşlığı gücləndirmək əzmi çoxtərəfli müstəvidə qarşılıqlı fəaliyyətimizin inkişafına da töhfə verəcək.



## Laos Prezidentindən azərbaycanlı iş adamlarına çağırış

Eyni yanaşma Laos Prezidenti Thonqlun Sisulit ilə görüşdə də ortaya qoyulub. Tərəflərin mətbuata birgə bəyanatı zamanı Prezident İlham Əliyev siyasi əlaqələrin uzun illərdir uğurla inkişaf etdiyini deyib. "Biz eyni mənzərəni iqtisadi sahədə də görmək istərdik. Bu gün fikir mübadiləsi əsnasında hər iki tərəf eyni mövqe bildirdi ki, bugünkü ticarət dövriyyəmiz, əlbəttə, bizim nə potensialımızı əks etdirir, nə də niyyətimizi. Ona görə müvafiq göstərişlər verildi ki, iqtisadi sahədə, o cümlədən ticarət dövriyyəsi sahəsində əməkdaşlıq intensivləşsin", - dövlət başçısı vurğulayıb.

Laos Prezidenti Thonqlun Sisulit qeyd edib ki, gələcəkdə Azərbaycanın iş adamlarının ölkəsinə daha çox investisiya yatıracağına əmindir. "Ticarətin, turizmin həcmi, mədəniyyət sahəsində mübadilələr artacaq", - deyə o bildirib.

### QOŞULMAMA HƏRƏKATINA, COP29-A SƏDRLİK

Qeyd edək ki, son illərdə beynəlxalq münasibətlər sistemində Qlobal Cənub ölkələrinin siyasi-iqtisadi çəkisi artmaqdadır. Beynəlxalq gündəmin ərzaq, enerji təhlükəsizliyi, bağlantılar, texnologiyaların inkişafı, iqlim dəyişmələrinə qarşı mübarizə və sair prioritet mövzuları ilə bağlı Qlobal Cənub ölkələrinin fəallığı genişlənir. Bu məsələlər Azərbaycan üçün də prioritet təşkil edir. Ölkəmizin 2019–2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi, 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi, 2025-ci ildə Bakıda Qlobal Cənub QHT Platformasının təsis konfransının keçirilməsi rəsmi Bakının qeyd olunan istiqamətdə diplomatik fəallığının prioritet olduğunu göstərir.

### BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ GÖSTƏRİLƏN DƏSTƏK

Hazırda hər bir ölkənin diplomatik çəkisi və gücü həm də beynəlxalq səviyyədə əldə etdiyi dəstəklə, etimadla da ölçülür. Bu gün Azərbaycan ali rəhbərliyinin ortaya qoyduğu yanaşmalar, rəsmi Bakının qlobal gündəmlə bağlı atdığı addımlar beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin artan nüfuzunu şərtləndirən başlıca amillərdəndir. Qlobal Cənub ölkələri ilə bu istiqamətdə fəaliyyətin koordinasiya olunması, əməkdaşlığın genişləndirilməsi isə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda rəsmi Bakı üçün əhəmiyyətli imkanlar yaradır. Azərbaycan üçün belə platformalarda iştirak həm ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, həm də beynəlxalq məsələlər üzrə tərəfdaşlarla ortaq mövqelərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.



## SİYASİ MÜSTƏVİDƏN İQTİSADİ ƏLAQƏLƏRƏ KEÇİD

Təbii ki, siyasi və diplomatik münasibətlərlə bərabər Azərbaycan qeyd olunan istiqamətdə iqtisadi əlaqələrin də genişləndirilməsində, qarşılıqlı investisiyaların yatırılmasında maraqlıdır. Bu yanaşma bütün tərəflərin milli maraqlarına uyğundur. Ölkəmiz xüsusilə qeyri-neft-qaz sahəsi üzrə əməkdaşlıq imkanlarının genişləndirilməsinə xüsusi diqqət ayırır. Bu platformalar çərçivəsində qurulan əlaqələr həm də Azərbaycan kənd təsərrüfatı, emal olunmuş ərzaq məhsullarının, kimya sənayesi məhsullarının və digər qeyri-neft mallarının Asiya, Afrika və Latın Amerikası bazarlarına çıxarılması imkanlarını genişləndirə bilər. Buraya logistika, enerji, qarşılıqlı sərmayələr, texnologiya və digər sahələr üzrə əməkdaşlıq perspektivləri də aiddir.

Beləliklə, Azərbaycanın Qlobal Cənub ölkələri ilə əməkdaşlığı uzun illər ərzində qurulan müsbət siyasi münasibətlərin qarşılıqlı maraqlara əsaslanan iqtisadi əlaqələrin inkişafı ilə dəstəklənməsini təşviq edir.

# SATİRA SİYASİ GÜCƏ ÇEVRİLİR

**Hindistanda “Tarakanlar Partiyası”nın başlatdığı etirazlar genişlənməkdədir. Ali Məhkəmənin hakiminin işsiz gənclərlə bağlı “tarakanlar” ifadəsi işlətməsindən sonra fəallar bu sözü özlərinə simvol seçiblər. Təhqiramiz məna daşıya bilən ifadə etirazçıların müqavimət və geri çəkilməmək rəmzinə çevrilib.**



AZƏR NURİYEV










Hindistanda gənclərin başlatdığı etiraz dalğası ölkənin gündəminin əsas mövzularından birinə çevrilib. Əvvəlcə işsizlik, təhsil sistemindəki problemlər və ali məktəblərə qəbul imtahanlarında yol verilən qanun pozuntularına etiraz kimi meydana çıxan hərəkat indi daha geniş siyasi müstəviyə keçib. Nümayişlərə bu yaxınlarda yaradılmış “Tarakanlar Partiyası” rəhbərlik edir. Partiya Hindistanın hakimiyyət strukturlarına qarşı narazılığın ifadə olunduğu platformalardan birinə çevrilib. Hərəkatın diqqətçəkən xüsusiyyəti onun qeyri-adi adında və yaranma tarixindədir. Sosial şəbəkələrdə satirik təşəbbüs kimi ortaya çıxan bu platforma qısa müddətdə tələbələrin, işsiz gənclərin və təhsil sistemindəki problemlərdən narazı olan insanların diqqətini cəlb edib. Etirazçılar artıq təhsil nazirinin istefasına da nail olublar. İndi isə Bharatiya Janata Partiyasının (BJP) hakimiyyətini hədəfə alıblar və Mərkəzi Seçki Komissiyasının rəhbəri Qaneş Kumarın vəzifəsindən uzaqlaşdırılmasını tələb edirlər. “Tarakanlar Partiyası”nın nümayəndələri və müxalifət liderləri iddia edirlər ki, Kumar seçici siyahılarında hökumətin maraqlarına uyğun dəyişikliklər edib.




### MODİNİN POPULYARLIĞI ŞÜBHƏ ALTINA ALINIR


KİV-in Daxili İşlər Nazirliyinin nümayəndələrinə istinadən yaydığı məlumata görə, Yeni Delhidə kütləvi etiraz aksiyalarının iştirakçılarından 2 mindən çox, Mumbayda isə 400 nəfər həbs edilib. Yeni Delhinin mərkəzi hissəsi polis tərəfindən bağlanıb, küçələrdə maneələr quraşdırılıb. Bir çox metro stansiyaları və bazarlar bağlanıb. Mobil rabitə xidməti də müvəqqəti dayandırılıb.

Amma belə görünür repressiya dalğası ilə gərginliyi azaltmaq mümkün olmayacaq. BJP uzun müddətdir ki, belə bir çağırışla üzləşməyib. Etirazçıların böyük əksəriyyətinin induslar olması vəziyyəti xüsusilə ciddi edir. Çünki hakim partiya ənənəvi olaraq məhz bu təbəqənin dəstəyinə arxalanır. BJP həm də ölkənin güclü və populyar lideri, Baş nazir Narendra Modinin partiyasıdır. İndi isə Modinin populyarlığı şübhə altına alınır və ciddi sınaqla üzləşir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı baş verənlərlə bağlı narahatlığını ifadə edib. Qurum bildirib ki, insanların sərbəst toplaşmaq və mitinq keçirmək hüquqlarına hörmət edilməlidir. Hindistanın Cenevrədəki BMT bölməsi yanında nümayəndəliyi Komissarlığın bəyanatını yersiz hesab edib və ölkənin daxili işlərinə müdaxilə kimi qiymətləndirib.

### SEÇİCİ HÜQUQLARI VƏ SİYASİ MƏSULİYYƏT

Hazırda əsas məsələ Kumarın təşkil etdiyi seçici siyahılarının yenidən nəzərdən keçirilməsi zamanı qanun pozuntularına yol verilib-verilməməsinin dəqiqləşməsi olacaq. Əgər belə hallar baş veribsə, seçkilərin nəticələri də sual altına düşür. Söhbət ümumölkə seçkilərindən deyil, bir neçə ştat səviyyəsində keçirilən seçkilərdən gedir. Lakin bu da kifayət qədər böyük əhəmiyyət daşıyır. “The Indian Express” qəzetinin yaydığı məlumatlardan belə məlum olur ki, Seçki Komissiyasının üzvləri seçici siyahılarında aparılan dəyişikliklərə etirazlarını bildiriblər, lakin Kumar bu fikirləri nəzərə almayıb. Əsas müxalifət partiyası olan Hindistan Milli Konqresinin (HMK) parlament üzvlərinin sözlərinə görə, siyahılardan əsasən müsəlman olan miqrant seçicilər çıxarılıb. Əhalisi 1,4 milyard nəfərə çatan ölkədə belə seçicilərin sayı az deyil. Söhbət on milyonlarla insandan gedir.


Qaneş Kumar

## Rahul Qandi: “Etiraz aksiyaları davam edəcək”

Hazırda “Tarakanlar Partiyası” etiraz aksiyalarını mümkün qədər çox şəhərə yaymağa çalışır. Partiyanın qurucusu Abiccit Dipkenin Mumbaya səfər etməsi də təsadüfi deyil. Delhiyə qayıdarkən o, hava limanında polis tərəfindən saxlanılıb. Lakin həbsdə qalması uzun çəkməyib. Oktyabrın 11-də Dipke azadlığa buraxılıb. O, mətbuata açıqlamasında bildirib ki, polis tərəfdarlarını qorxuda bilməyəcək və etirazlar davam edəcək.

Digər müxalifət partiyalarının fəalları, o cümlədən Hindistan Milli Konqresinin nümayəndələri də saxlanılıblar. Onların arasında Qərbi Benqal ştatının keçmiş baş naziri Mamata Banerci də var. HMK-nın lideri Rahul Qandi bildirib ki, onun partiyasının iştirakı ilə kütləvi nümayişlər bundan sonra da davam edəcək.

Hindistan Milli Konqresi etiraz fəallığından maksimum siyasi fayda götürməyə ümid edir. Partiyanın əsas məqsədi növbədənkənar parlament seçkilərinin keçirilməsinə nail olmaqdır. Hindistan parlamentinin aşağı palatası olan Lok Sabhaya növbəti seçkilər 2029-cu ildə keçirilməlidir.

### “TARAKANLAR PARTİYASI” DİQQƏT MƏRKƏZİNDƏ

Hərəkata rəhbərlik edən və “Tarakanlar Partiyası” kimi tanınan “Cockroach Janta Party” (CJP) gənclərin narazılığını küçə aksiyalarına və daha geniş ictimai-siyasi müzakirələrə daşıyıb. 2026-cı ilin mayında Ali Məhkəmənin hakimi Surya Kantın işsiz gənclərlə bağlı “tarakanlar” ifadəsi işlətməsi barədə məlumatlar yayıldıqdan sonra fəallar bu sözü özlərinə simvol seçiblər. Beləliklə, təhqiramiz məna daşıya bilən ifadə etirazçıların müqavimət və geri çəkilməmək rəmzinə çevrilib. Hərəkatın təsisçisi Abhijeet Dipke sosial şəbəkələrdə və aksiyalarda bu simvoldan geniş istifadə edib.




“Tarakanlar Partiyası”nın meydana çıxması Hindistan cəmiyyətində, xüsusilə də gənclər arasında uzun müddətdir yığılan narazılıqların ifadəsi kimi qiymətləndirilir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# ORTA AYLIQ ƏMƏKHAQQI ARTACAQ

**2027-ci ildə orta aylıq əməkhaqqının 1300 manata, 2030-cu ilədək isə 1600 manata çatması proqnozlaşdırılıb. Amma minimum əməkhaqqının artırılması fonunda istehlak qiymətlərinin də yüksəlməsi riski mövcuddur.**



**AYGÜN ƏZİZ**
aygunaziz@kaspi.az




Azərbaycanda orta aylıq əməkhaqqı 1 200 manat həddinə yaxınlaşır. Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlara əsasən, bu ilin yanvar-avqust aylarında ölkə üzrə orta aylıq əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 7,2% artaraq 1 173 manat təşkil edib. Əhalinin gəlirlərindəki bu artım dinamikası fonunda ölkə rəhbərliyi tərəfindən növbəti sosial addımın atılacağı gözlənilir. Prezidentin müvafiq tapşırığına əsasən, gələn il ölkədə minimum əməkhaqqının artırılması nəzərdə tutulur. Bəs minimum əməkhaqqının qaldırılması gələn il orta aylıq əməkhaqqının daha da yüksəlməsinə necə təsir edəcək?

### "700 MİNDƏN ÇOX VƏTƏNDAŞIN ƏMƏKHAQQI ARTIRILACAQ"

Millət vəkili Vüqar Bayramov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, minimum əməkhaqqının artırılması ölkə üzrə orta aylıq əməkhaqqı məbləğlərinə birbaşa təsir göstərəcək. Millət vəkilinin sözlərinə görə, gələn il ölkə üzrə orta aylıq əməkhaqqı məbləğlərində də artımların müşahidə olunacağı gözlənilir: "Praktiki baxımdan minimum əməkhaqqının artırılması 700 mindən çox vətəndaşın əməkhaqqının artması ilə nəticələnəcək. Bu da orta aylıq nominal əməkhaqqının artımına təsir göstərən əsas amillərdən birinə çevriləcək. Minimum əməkhaqqı artırıldıqdan sonra Nazirlər Kabineti dövlət idarələrində çalışan, lakin dövlət qulluqçusu olmayan şəxslərin vəzifə maaşlarının artırılması ilə bağlı qərar qəbul edəcək. Bu da minimum əməkhaqqından yüksək maaş alan həmin şəxslərin əməkhaqlarının artmasına səbəb olacaq. Bu baxımdan, gələn il minimum əməkhaqqının artırılmasının orta aylıq əməkhaqqının artımına birbaşa təsir göstərəcəyi gözlənilir".

## "Nisbətən az əməkhaqqı alanların maaşlarının artması prioritetdir"

V. Bayramov bildirir ki, 2027-ci ildə də orta aylıq əməkhaqqının 1300 manata, 2030-cu ilədək isə, 1600 manata çatması proqnozlaşdırılıb: "Təbii ki, əməkhaqqı artımları vətəndaşlarımızın sosial təminatı baxımından çox vacibdir. Çünki bu, onların sosial rifahının yaxşılaşmasına gətirib çıxarır. Xüsusilə nisbətən az əməkhaqqı alan vətəndaşlarımızın maaşlarının artırılması prioritetdir. Cənab Prezident tərəfindən imzalanmış Əmək Məcəlləsinə dəyişikliklərdən sonra minimum əməkhaqqı məbləğinə ildə ən azı bir dəfə baxılması nəzərdə tutulub. Bu da onu göstərir ki, minimum əməkhaqqının və ümumilikdə əməkhaqqı məbləğlərinin mütəmadi artırılmasını müşahidə edəcəyik".



### "ÖZƏL SEKTORDA DA MAAŞ ARTIMLARI BAŞ VERƏ BİLƏR"

İqtisadçı-ekspert Asif İbrahimov da bildirir ki, növbəti il minimum əməkhaqqının artırılması ölkə üzrə orta aylıq əməkhaqqının yüksəlməsinə təsir göstərə bilər: "Hazırda orta aylıq nominal əməkhaqqı 1 173 manatdır. Gələn il bu göstəricinin 1 200 manatı ötməsi mümkündür. Bunun üçün təxminən 2,3 faiz artım kifayətdir. Ancaq orta əməkhaqqının artımına təkcə minimum əməkhaqqı təsir göstərmir. İqtisadi artım, müəssisələrin gəlirləri, yeni iş yerləri və əmək məhsuldarlığı da mühüm rol oynayır. Minimum əməkhaqqının artırılması ilk növbədə aşağı maaş alan işçilərin gəlirlərini yüksəldəcək. Vahid Tarif Cədvəli ilə çalışanların maaşlarına təsir isə qəbul ediləcək qərardan asılı olacaq. Özəl sektorda da maaş artımları baş verə bilər. Çünki işçilərin əməkhaqqı yüksəldikdə müəssisələr digər əməkhaqqı səviyyələrinə də yenidən baxmağa məcbur qala bilərlər. Lakin bütün müəssisələrin eyni həcmdə artım etməyə maliyyə imkanı yoxdur".



## "Qiymətlər yüksələ bilər"

Mütəxəssis əməkhaqqı artımında qarşılaşa biləcəyimiz risklərdən də danışdı: "İstehsal zəifdir, məhsuldarlıq bir çox sahədə aşağıdır, biznesin xərcləri yüksəkdir. Belə şəraitdə minimum əməkhaqqının artırılması qiymətlərin yüksəlməsinə səbəb ola bilər. Çünki əməkhaqqı fondu məhsul və xidmətlərin maya dəyərinin mühüm hissəsini təşkil edir. İşəgötürənin əməkhaqqı xərcləri artdıqda, həmin xərclərin bir hissəsi məhsul və xidmətlərin qiymətinə əlavə edilə bilər. Nəticədə vətəndaşın maaşı artır, amma aldığı məhsul və xidmətlər də bahalaşır. Əgər qiymətlər maaşlardan daha sürətlə yüksələrsə, insanların real gəlirləri artmayacaq. Bu, xüsusilə ərzaq, nəqliyyat, məişət xidmətləri və gündəlik tələbat mallarının qiymətlərində özünü göstərə bilər. Bahalaşmanın miqyası isə bazardakı rəqabətdən, istehsal xərclərindən və müəssisələrin qiymət siyasətindən asılı olacaq. Avropa Sosial Xartiyası da bu məsələyə diqqət yetirməyi tələb edir. Xartiyanın 4-cü maddəsinin 1-ci bəndi işçilərin özlərinin və ailələrinin layiqli həyat səviyyəsini təmin edən əməkhaqqı almaq hüququnu nəzərdə tutur. Avropa Sosial Hüquqlar Komitəsinin yanaşmasında minimum xalis əməkhaqqının orta xalis əməkhaqqının 60 faizinə çatması mühüm meyar hesab olunur. Bu baxımdan, Azərbaycanda minimum əməkhaqqının müəyyənləşdirilməsi zamanı həmin nisbət də nəzərə alınmalıdır. Məqsəd işçinin maaşı ilə ailəsinin əsas yaşayış ehtiyaclarını qarşılaya bilməsidir".

### "BAZARDA RƏQABƏTİ DƏ GÜCLƏNDİRMƏK LAZIMDIR"

İqtisadçı vurğulayır ki, gələn il əməkhaqqının artımına iqtisadi fəallıq, dövlət büdcəsinin imkanları, investisiyalar və qeyri-neft sektorunun inkişafı da təsir göstərəcək: "Əgər istehsal və xidmətlərin həcmi genişlənər, əmək məhsuldarlığı yüksələrsə, maaşların artması üçün daha sağlam iqtisadi əsas yaranar. Əks halda, müəssisələrin əlavə xərcləri qiymətlərin yüksəlməsinə və yeni iş yerlərinin yaradılmasının çətinləşməsinə səbəb ola bilər. Minimum əməkhaqqının artırılması əhalinin sosial müdafiəsi üçün vacib addımdır. Ancaq iqtisadiyyatımızın mövcud problemləri həll olunmadan bu artımın bahalaşma ilə müşayiət olunması riski yüksək qalır. Maaşları artırmaqla yanaşı, istehsalı genişləndirmək, məhsuldarlığı yüksəltmək və bazarda rəqabəti gücləndirmək lazımdır. Əks halda, vətəndaşın cibinə əlavə pul qoyulacaq, amma qiymət artımı həmin pulun alıcılıq gücünü azaldacaq".

# YERLİ MƏHSULLARIMIZIN AVROPA SINAĞI

Avropa İttifaqı bazarına çıxış əldə edən Azərbaycan müəssisələrinin sayı 2-dən 12-yə yüksəlib. Ekspertlər hesab edirlər ki, sayın artmasına baxmayaraq, bu istiqamətdə görüləcək işlər də az deyil.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan müəssisələrinin Avropa İttifaqı (Aİ) bazarına çıxışı son illərdə müəyyən qədər genişlənib. Aİ-yə məhsul ixracına icazə verilmiş müəssisələrin sayı 2018-ci ildəki 2-dən 2025-ci ildə 12-yə yüksəlib. Bu, say baxımından altıqat artım deməkdir. Bununla belə, Azərbaycanın iqtisadi və ixrac potensialı nəzərə alındıqda, Aİ bazarına çıxış əldə edən müəssisələrin ümumi sayının hələ də olduqca məhdud olduğu görünür. Akvakulturada yetişdirilən nərəkimilərin kürüsünün Aİ-yə ixracına icazə verilməsi, Azərbaycanın heyvan mənşəli məhsullar ixracına icazə verilən ölkələr siyahısına daxil edilməsi və fındıq ixracında "yaşıl dəhliz" rejiminin tətbiqi mühüm irəliləyişlər kimi qiymətləndirilə bilər. Lakin bu addımlar Azərbaycan məhsullarının Avropa bazarında geniş və dayanıqlı təmsilçiliyinə çevrilmək üçün hələ kifayət etmir. Bəs görəsən müəssisələrimiz Aİ bazarına çıxış üçün hansı tələbləri yerinə yetirməlidir? Azərbaycan şirkətləri Aİ-nin böyük istehlak bazarındakı imkanlardan niyə tam istifadə edə bilmir?

### QEYRİ-NEFT İXRACI BAXIMINDAN MÜHÜM NAİLİYYƏT

İqtisadçı Eyyub Kərimli bildirib ki, Avropaya ərzaq və kənd təsərrüfatı məhsulları ixrac edən müəssisələrin sayının artması müsbət haldır: "Bu, ölkədə qeyri-neft sektorunun inkişafı və qeyri-neft ixracının genişlənməsi baxımından əlavə nailiyyətdir. Eyni zamanda, bu, ixrac gəlirlərinin artırılması üçün mühüm imkanlar yaradır. Amma onu da qabartmaq lazımdır ki, bu gün kənd təsərrüfatı məhsullarımızın Avropa bazarına ixracı ilə bağlı müəyyən çətinliklər mövcuddur və bu istiqamətdə ciddi işlər aparılmalıdır".

E.Kərimli vurğulayıb ki, əsas məsələlərdən biri Azərbaycan müəssisələrinin Avropa standartlarına uyğunlaşdırılmasıdır: "Fermer təsərrüfatlarının ISO standartlarını əldə etməsi üçün dövlət tərəfindən dəstək göstərilməlidir. Avropada qida məhsulları ilə bağlı ciddi tələblər və yüksək standartlar mövcuddur. Bununla belə, Azərbaycan məhsullarının təbiiliyi və genetik modifikasiya olunmuş məhsulların payının aşağı olması onları Avropa bazarında rəqabətli edə bilər. Təbii və keyfiyyətli kənd təsərrüfatı məhsullarımızın bu bazarda kifayət qədər böyük potensialı var".



Eyyub Kərimli

## "FERMERLƏRİN KONSOLİDASİYASI VACİBDİR"

İqtisadçının sözlərinə görə, Aİ-yə ixrac icazəsi əldə edən müəssisələrin sayı növbəti illərdə daha da artmalıdır. Bunun üçün fermerlərin konsolidasiyası və kooperasiyaların yaradılması, istehsalçıların maarifləndirilməsi, onlayn ticarət platformalarının inkişaf etdirilməsi, eləcə də müvafiq beynəlxalq standartların əldə olunması istiqamətində ciddi fəaliyyət göstərilməlidir. Bu prosesdə dövlət fermerlərə və sahibkarlara daha geniş dəstək verməlidir.

### "12 MÜƏSSİSƏ BAŞLANĞIC MƏRHƏLƏSİ ÜÇÜN NORMAL GÖSTƏRİCİDİR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı Vüqar Oruc bildirib ki, müəssisələrin sayının 2-dən 12-yə yüksəlməsi müsbət dinamikadır və inkişaf göstəricisi hesab oluna bilər: "Kənd təsərrüfatı və qida istehsalı potensialı yüksək olan Azərbaycan kimi ölkə üçün, təbii ki, 12 müəssisə, hətta 120 müəssisə belə az sayıla bilər. Lakin nəzərə almaq lazımdır ki, Avropa bazarına daxil olmaq üçün fərqli və kifayət qədər sərt tələblər mövcuddur".



V. Oruc qeyd edib ki, məhsulların sertifikatlaşdırılması, standartlara cavab verməsi və Avropa bazarında mövcud olan məhsullarla keyfiyyət göstəriciləri baxımından uyğunluq təşkil etməsi tələb olunur: "Bu tələbləri hər bir müəssisə yerinə yetirə bilmir. Bununla belə, müayinə tezliyinin 20 faizə endirilməsi və ixrac üçün sertifikat tələbinin aradan qaldırılması müsbət tendensiyadır. Bu, göstərir ki, Azərbaycan məhsulları artıq Avropa bazarında müəyyən qədər özünü təsdiqləyir".

### "Aİ BAZARINDA ƏSAS TƏLƏB QİDA TƏHLÜKƏSİZLİYİDİR"

İqtisadçı vurğulayıb ki, Aİ bazarında qida təhlükəsizliyi, məhsulların izlənəbilən olması, laboratoriya nəzarəti və istehsal proseslərinin müvafiq standartlara uyğunluğu ilə bağlı tələblər kifayət qədər sərtdir: "Bu tələblər yalnız postsovet ölkələri üçün deyil, dünyanın bütün dövlətləri üçün tətbiq olunur. Avropa İttifaqı bu standartlar vasitəsilə həm daxili bazarını qoruyur, həm də istehsal olunan məhsulların rəqabət qabiliyyətini artırır. Eyni zamanda, bazarın yüksək keyfiyyət və prestij səviyyəsini qorumaqla daha keyfiyyətli məhsulların öz bazarına daxil olması üçün şərait yaradır".

Ekspert bildirib ki, 12 müəssisə Azərbaycanın ixrac potensialı ilə müqayisədə başlanğıc mərhələsi üçün normal göstərici sayıla bilər. Lakin bu rəqəmlə kifayətlənmək düzgün deyil: "Əgər yeddi-səkkiz il ərzində müəssisələrin sayı 2-dən 12-yə yüksəlibsə, bunu çox böyük göstərici hesab etmək olmaz. Lakin mövcud şərtləri, Azərbaycan bazarının hazırkı səviyyəsini və postsovet məkanının xüsusiyyətlərini nəzərə alsaq, bu vəziyyəti ciddi şəkildə tənqid etmək də düzgün deyil. Əsas məsələ bundan sonra Avropa bazarına daxil olmaq üçün zəruri şərtlərin təmin edilməsidir".





## MÜƏSSİSƏLƏR HANSI TƏLƏBLƏRƏ CAVAB VERMƏLİDİR?

V.Oruc deyib ki, ilk növbədə istehsal müəssisələri beynəlxalq standartlara uyğunlaşdırılmalıdır: "ISO sertifikatlaşdırmasının tətbiqi, idarəetmə prinsiplərinin yenilənməsi, ekoloji təmizlik, məsuliyyət və sosial məsuliyyətlilik kimi prinsiplərin müəssisələrin istehsal və idarəetmə proseslərinə inteqrasiyası vacib şərtlərdir. Təəssüf ki, Azərbaycanda bir çox müəssisə hələ də keçmiş sovet dövrünün idarəetmə prinsipləri ilə fəaliyyət göstərir. Müasir yanaşmalar tətbiq edən müəssisələr olsa da, onların sayı kifayət qədər deyil".

Ekspert vurğulayıb ki, ikinci mühüm məsələ məhsulların istehsalı üzrə laboratoriya və nəzarət sistemlərinin qurulmasıdır: "Müayinə və sənədləşmə prosesləri yüksək səviyyədə təşkil edilməli və Avropa standartlarına uyğun şəkildə aparılmalıdır"


V.Oruc bildirib ki, məhsulun xammal mərhələsindən hazır məhsula qədər izlənəbilənliyinin təmin olunması əsas tələblərdən biridir.



Vüqar Oruc

# XARİCDƏ İŞ ELANI İLƏ BAŞLAYAN RİSK

**Yüksək maaş vədi ilə xaricə aparılan, sonradan çətin vəziyyətdə qoyulan şəxslərlə bağlı şikayətlər artır. İş tapmaq ümidi ilə başqa ölkələrə gedənlər bəzən orada nə iş, nə də yaşayış yeri ilə təmin olunurlar.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




"Kölndə işsiz qalmışam. İşə gətirən atıb gedib. Bir neçə həftədir telefonuna zəng çatmır. Bir iş köməkliyi olsa, hətta fəhləlik olsa belə olar..."

Sosial şəbəkələrdə paylaşılan bu müraciət Almaniya və digər xarici ölkələrə yüksək maaş vədi ilə aparılan, sonradan çətin vəziyyətdə qoyulan şəxslərlə bağlı narazılıqları yenidən gündəmə gətirib. Təcrübələr göstərir ki, iş tapmaq ümidi ilə başqa ölkələrə gedən azərbaycanlılar bəzən orada nə iş, nə də yaşayış yeri ilə təmin olunurlar. Nəticədə insanlar tanımadıqları ölkədə köməksiz vəziyyətdə qalırlar. İş vədləri isə əsasən öz həmvətənlərimizdən gəlir...

Bəs insanları xaricdə iş vədi ilə apararaq sonradan çətin vəziyyətdə qoymaq hansı hüquqi məsuliyyət yarada bilər?

### CİDDİ HÜQUQİ QİYMƏT TƏLƏB EDƏN MƏSƏLƏ

"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyev məsələnin ciddi hüquqi qiymət tələb etdiyini bildirir: "İnsanları xaricdə yüksək maaşlı iş yeri, oxuma vədi ilə aparıb sonra onları taleyin ümidinə buraxmaq çox təhlükəli nəticələr doğurur. İnsan tanımadığı ölkədə işsiz və yaşayış yeri olmadan qala, dili bilmədiyi üçün öz hüquqlarını müdafiə etməkdə çətinlik çəkə bilər. Bu vəziyyət onu qanunsuz işləməyə, ağır və təhlükəli əmək şəraitini qəbul etməyə və müxtəlif şəxslərdən asılı vəziyyətə düşməyə məcbur edə bilər. Sonradan həmin şəxslər əməkhaqqı ödənilmədən işlədilə, sənədləri əllərindən alına, deportasiya ilə hədələnə və digər qanunsuz əməllərə cəlb oluna bilərlər".




**"İŞ TƏKLİF EDƏN HƏR KƏSİN NİYYƏTİ XOŞ OLMAYA BİLƏR"**

Ə. Nuriyev qeyd edib ki, şəxsi xaricə aparan tərəfin əvvəlcədən real iş yerinin olmadığını bildiyi halda sənədləşmə və işə düzəltmə adı ilə pul alması müəyyən edilərsə, dələduzluq əlamətlərinin olub-olmaması araşdırılmalıdır: "Əgər real iş razılaşması olub və sonradan müəyyən səbəblərdən baş tutmayıbsa, məsuliyyət məsələsi də konkret hallardan asılı olaraq qiymətləndirilə bilər. Bu zaman yazışmalar, verilmiş vədlər, ödəniş sənədləri və digər sübutlar mühüm əhəmiyyət daşıyır". Hüquqşünas köməksiz vəziyyətdə olan şəxslərin şəxsi əlaqə məlumatlarını, xüsusilə telefon nömrələrini sosial şəbəkələrdə açıq şəkildə paylaşmasının da təhlükə yarada biləcəyini bildirir: "Şəxsə iş təklif edən hər kəsin niyyəti xoş olmaya bilər. Əksinə, bu cür açıq paylaşımlar həmin insanı yeni istismar riski ilə üzləşdirər".

Hüquqşünasın sözlərinə görə, əgər şəxsin xaricə aparılmasında əvvəlcədən istismar niyyəti olubsa, hadisə yalnız məsuliyyətsizlik kimi deyil, dələduzluq, insan alveri və məcburi əmək əlamətləri baxımından da araşdırılmalıdır: "Bu sahədə maarifləndirmə də vacibdir. Bəzi şəxslər təhsil və iş vədi ilə aldadılsalar da, sonradan qarşılaşdıqları problemlərlə bağlı aidiyyəti qurumlara müraciət etmirlər".

Hüquqşünas belə hallarla üzləşən şəxsləri hüquqi yardım üçün aidiyyəti dövlət qurumlarına, o cümlədən Daxili İşlər Nazirliyinin və İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin qaynar xətlərinə təqdim etməyə çağırır. Onun fikrincə, belə hallarla rastlaşanlar olduqları ölkənin polis orqanlarına, ölkəmizin səfirlik və konsulluğuna, QHT-lərə, sığınacaqlara və etibarlı yardım qruplarına müraciət etməkdən çəkinməməlidirlər.

## Əmək müqaviləsi, miqrasiya statusu...

Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyinin (İB) rəhbəri Kəmalə Aşumovanın sözlərinə görə, qadın və uşaqlarla işlədikləri üçün bu mövzuda çoxsaylı müraciətlərlə qarşılaşır: "Xüsusən qadınlar iş elanlarını görüb xaricə üz tuturlar. Onların arasında gənc xanımlar da olur. Belə hallarda qanunvericiliyin pozulması riski yaranır. Bu, həm əməyin istismarı, həm də insan alveri təhlükəsi ola bilər. Hadisə xaricdə baş verdikdə onun araşdırılması daha çətin olur".

İB rəhbəri hesab edir ki, insanlar yeni peşə imkanları əldə etmək və ailələrinin maddi vəziyyətinə dəstək olmaq baxımından belə elanları fürsət kimi dəyərləndirirlər: "Amma rəqəmsal mühitdə risklər real mühitlə müqayisədə daha çoxdur. Bu mühitdə müxtəlif şübhəli iş elanlarının yayılması və insanlara çatdırılması asanlaşır. Təəssüf ki, həmişə uğurlu nəticə müşahidə etmirik: "Yüksək maaş olacaq", "Təcrübə tələb olunmur", "Yerləşmə üçün hər şey hazırdır..." kimi vədləri dərindən araşdırdıqda görürük ki, bəzən ortada nə peşəkar yanaşma, nə də dürüstlük olur. Hətta insanlardan əvvəlcədən müəyyən məbləğdə pul tələb edilir və "bu qədər maliyyə ödənişi et, biz prosesi başladaq" deyilir".

K.Aşumovanın sözlərinə görə, əsas risklərdən biri əmək müqaviləsinin yoxluğu, vəd edilən işlə faktiki görüləcək işin fərqli olmasıdır: "Çox az insan ölkədən getməmişdən əvvəl qarşı tərəfdən əmək müqaviləsini elektron qaydada əldə edir və imzalayır. Halbuki bu sənəd həmin şəxs üçün hüquqi əsas yaradır və sonradan hüquqlarını müdafiə etmək, şikayət etmək imkanı verir. Ona görə insanların özlərini sığortalaması üçün bu prosesə hələ öz ölkələrində ikən başlamaları vacibdir".

Ekspert bildirir ki, prosesdə miqrasiya statusu da mühüm amildir: "Şəxs gedəcəyi ölkədə hansı statusda yaşayacaq?", "Orada nə qədər qala biləcək?" Bəzən altı aydan sonra məlum olur ki, şəxsin oturum icazəsinin müddəti bitib. Bundan sonra isə cərimə və hətta deportasiya riski ilə üzləşə bilir".

K.Aşumova bildirir ki, xaricdən iş təkliflərində təhlükəli siqnalları əvvəlcədən müəyyənləşdirmək lazımdır: "İlk növbədə dəvət edən şirkət araşdırılmalı, rəsmi saytı, sosial şəbəkə hesabları nəzərdən keçirilməli, fəaliyyəti, gördüyü işlər barədə yayılan xəbərlər araşdırılmalıdır".

## "Ziyanın yarısından qayıtmaq da böyük şeydir"

K.Aşumova bildirir ki, xüsusən qadın və qızlar gedəcəkləri ölkədə harada və hansı şəraitdə yaşayacaqları ilə bağlı riskləri də nəzərə almalıdırlar: "Tövsiyə edirik ki, insanlar gedəcəkləri ölkələrdə səfirliklər, icma nümayəndəlikləri və digər müvafiq qruplarla əvvəlcədən əlaqə saxlasınlar. Həm xaricdə, hə ölkəmizdəki qaynar xətlərə müraciət etsinlər. Bu baxımdan, maarifləndirmə çox vacibdir. İnsan riskin qarşısını əvvəlcədən ala bilirsə, bu, ən böyük təcrübədir. Ziyanın yarısından qayıtmaq da böyük şeydir".



# ÖDƏNİŞLİ YOLLAR EFFEKTLİDİRMİ?

**Ödənişli avtomobil yollarının tətbiqi sürücülərə alternativ marşrut seçimi təqdim etməklə yanaşı, daha yüksək texniki göstəricilərə malik yol infrastrukturu vasitəsilə hərəkətin rahatlığının və təhlükəsizliyinin artırılmasına xidmət edir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Azərbaycanda ödənişli avtomobil yollarının şəbəkəsi genişlənir. Hazırda Bakı-Quba-Rusiya sərhədi və Əhmədbəyli-Füzuli-Şuşa magistralları artıq bu sistemlə fəaliyyət göstərir. Sürücülərə daha sürətli, təhlükəsiz və rahat hərəkət vədi verən bu yollar nəqliyyat infrastrukturunda yeni dövrün başlanğıcı sayılır. Bəs təcrübə nəyi göstərir? Sürücülərin bu marşrutlara uyğunlaşması necə gedir və ilkin göstəricilər nə deyir?

### "MƏQSƏD ALTERNATİV SEÇİM VƏ YÜKSƏK TƏHLÜKƏSİZLİKDİR"

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) "Kaspi" qəzetinə verilən məlumata görə, ödənişli avtomobil yollarının tətbiqi sürücülərə alternativ marşrut seçimi təqdim etməklə yanaşı, daha yüksək texniki göstəricilərə malik yol infrastrukturu vasitəsilə hərəkətin rahatlığının və təhlükəsizliyinin artırılmasına xidmət edir: "Hazırda Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi və Əhmədbəyli-Füzuli-Şuşa ödənişli avtomobil yollarından istifadə göstəriciləri mütəmadi olaraq izlənilir.



Rauf Ağamirzəyev

Hərəkət intensivliyi günün və mövsümün xüsusiyyətlərindən, bayram və istirahət günlərindən, eləcə də yük və sərnişin daşımalarının intensivliyindən asılı olaraq dəyişir. Müşahidələr göstərir ki, ödənişli yollardan həm minik, həm də yük nəqliyyat vasitələri istifadə edir. Sürücülərin marşrut seçiminə yolun uzunluğu, hərəkət şəraiti, səfər müddəti, nəqliyyat vasitəsinin təyinatı və digər amillər təsir göstərir. Bununla yanaşı, hər iki istiqamətdə ödənişsiz alternativ marşrutların mövcud olması sürücülərin seçim imkanını qoruyur".

### MƏSAFƏ QISALIR, YANACAĞA QƏNAƏT OLUNUR

Agentliyin məlumatına görə, ödənişli yolların əsas üstünlüklərindən biri onların daha yüksək texniki göstəricilərə və buraxıcılıq qabiliyyətinə malik olmasıdır: "Məsələn, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu alternativ Zəfər yolundan təxminən 20 kilometr qısadır. Daha qısa məsafə və yolun texniki göstəriciləri hərəkət şəraitindən asılı olaraq səfər müddətinin və yanacaq sərfiyyatının azalmasına imkan yaradır. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi istiqamətində yeni magistral da əvvəlki marşrutla müqayisədə daha qısa olmaqla yanaşı, yaşayış məntəqələrinin daxilindən keçmədən tranzit hərəkətin təşkilinə imkan verir. Bu isə xüsusilə uzun məsafəli daşımalar və yük nəqliyyatı üçün daha rahat hərəkət şəraiti yaradır".

**Foto:** Sabir Məmmədov /Global Media Group

## Ödənişli avtomobil yollarından daxil olan vəsait necə xərclənir?

Qurumdan bildirilib ki, ödənişli yolların effektivliyi yalnız onlardan istifadə edən nəqliyyat vasitələrinin sayı və ya ödənişlərdən daxil olan vəsaitlə qiymətləndirilmir. Burada hərəkət vaxtının və məsafənin azalması, yol hərəkətinin təhlükəsizliyi, tranzit axınların yaşayış məntəqələrindən kənarlaşdırılması, alternativ yollarda nəqliyyat yükünün bölüşdürülməsi və yol infrastrukturunun saxlanılması kimi amillər də nəzərə alınır: "Ödənişli avtomobil yollarından daxil olan vəsait qanunvericiliklə müəyyən edilmiş qaydada avtomagistralların və ödəniş məntəqələrinin saxlanılması, qorunması və təmiri, ödənişli yolların idarə olunması, həmçinin avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı xərclərin maliyyələşdirilməsinə yönəldilir. Əhmədbəyli-Füzuli-Şuşa yolunda ödənişli istismar rejiminin nisbətən qısa müddət əvvəl tətbiq edildiyini nəzərə alaraq, bu yol üzrə istifadə dinamikası və sürücülərin seçim davranışları ilə bağlı dəqiq nəticələrin formalaşdırılması üçün daha uzun müşahidə dövrü tələb olunur. Ümumilikdə isə hər iki ödənişli yol üzrə hərəkət intensivliyi və istifadə göstəriciləri izlənilir, əldə olunan məlumatlar yol infrastrukturunun idarə olunması zamanı nəzərə alınır".

## "Ödənişli yollara ehtiyac hər gün daha da artacaq"

Nəqliyyat eksperti Rauf Ağamirzəyevin sözlərinə görə, ödənişli yolların tətbiqi dünyada və bölgəmizdə illərdir sınaqdan keçmiş bir praktikadır. Azərbaycanda da bu sistemin tətbiqi istiqamətində addımlar artıq bir neçə ildir ki, atılır: "Ödənişli yolların əsas meyarlarından biri pulsuz alternativinin olmasıdır. Yəni hər hansı bir yol ödənişli edilirsə, mütləq pulsuz alternativi saxlanılmalıdır. Hazırda şimal istiqamətində ödənişli magistral fəaliyyət göstərir. Yaxın vaxtlarda Əhmədbəyli-Füzuli-Şuşa yolu da ödənişli edilib. Bu yolun alternativi kimi həm Zəfər yolu, həm də Qırmızı bazardan keçən "M1" Füzuli-Şuşa yolu var. Növbəti illərdə fərqli istiqamətdə, məsələn, cənub marşrutunda da mövcud yeni magistral ödənişli ola bilər, köhnə yol isə əsaslı təmirdən sonra pulsuz alternativ kimi sürücülərin istifadəsinə verilər".

Ekspert bildirir ki, bu mexanizm mövcud nəqliyyat imkanlara söykənir, həm yolların saxlama xərclərini qarşılayır, həm də sürücülər üçün rahat seçimlər yaradır: "Nəzərə alsaq ki, Azərbaycan həm Şimal-Cənub, həm də Şərq-Qərb beynəlxalq nəqliyyat koridorlarının kəsişməsində yerləşir və ölkədə ümumi yükdaşımaların 70%-dən çoxu məhz avtomobil nəqliyyatının payına düşür, belə ödənişli yollara ehtiyac hər gün daha da artacaq. Ölkənin strateji coğrafi mövqeyi də nəqliyyat infrastrukturu məsələsini ön plana çəkir. Bu mənada, istiqamətindən asılı olaraq belə bir praktika gələcəkdə də tətbiq edilə bilər".

# MƏTBUAT ŞURASININ YENİ SƏDRİ SEÇİLDİ



**Azərbaycan jurnalistlərinin IX qurultayında Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibi də formalaşdırılıb. Səsvermə yolu ilə formalaşdırılan İdarə Heyətinin tərkibinə 23 nəfər daxildir.**

Bakıda, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Mətbuat Şurasının IX Qurultayı keçirilib. Qurultayda Azərbaycan Mətbuat Şurası sədrinin və Nəzarət-Təftiş Komissiyasının hesabatları dinlənilib, Şuranın İdarə Heyətinin yeni tərkibi seçilib.

### ÜMUMİLİKDƏ 815 ŞİKAYƏT DAXİL OLUB

Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışı zamanı bildirib ki, son dörd il ərzində Mətbuat Şurasına ümumilikdə 815 şikayət daxil olub. Onların böyük bir qismi – 691-i həllini tapıb, tərəflər arasında razılığa gəlinib. Digər 124 şikayət üzrə razılığa gəlinmədiyindən toplanmış materiallar baxılmaq üçün Şuranın şikayətlər üzrə komissiyasına təqdim edilib. "Şikayətlər üzrə komissiyada baxılan 124 məsələdən 86-sı komissiya səviyyəsində həllini tapıb. 38 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün İdarə Heyətinə təqdim edilib. Beləliklə, Şuranın İdarə Heyəti qurultaylararası dövrdə, ümumilikdə 38 qərar çıxarıb".

### ETİK DAVRANIŞ KODEKSİNƏ YENİ PRİNSİP ƏLAVƏ EDİLƏCƏK

Mətbuat Şurasının İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli qeyd edib ki, Azərbaycan Jurnalistlərinin Etik Davranış Kodeksi qaydalarına süni intellektlə bağlı yeni prinsipin əlavə edilməsi istiqamətində iş aparılır. Onun sözlərinə görə, yeni prinsip media subyektlərinin fəaliyyətində süni intellektdən istifadə qaydalarını müəyyənləşdirəcək: "Media subyektlərinin redaksiyalarında süni intellekt sistemlərindən istifadə qaydalarını müəyyən edən daxili sənədlər qəbul edilməlidir. Bu qaydalarda süni intellektdən istifadənin məqsədləri, sərhədləri, yoxlama prosedurları və redaksiyanın məsuliyyəti aydın şəkildə müəyyənləşdirilir. Redaksiyalar öz əməkdaşlarının süni intellektdən istifadə bacarıqlarının artırılması üçün müvafiq şərait yaratmalıdırlar".

M.Ələsgərli bildirib ki, süni intellekt sistemlərindən istifadə jurnalistin təşəbbüs və mühakiməsini, redaksiya müstəqilliyini və insan nəzarətini əvəz etməməlidir.

## DÖVRÜN TƏLƏBLƏRİNƏ CAVAB VERƏN APARICI SAHƏ

Media və Yayım Şurasının şöbə müdiri Natiq Məmmədli bildirib ki, jurnalistika hər zaman, tarix boyu dövrün tələblərinə cavab verən aparıcı sahə olub: "Biz hazırda rəqəmsal dövrdə yaşayırıq. Hal-hazırda bizim jurnalistlər rəqəmsal mühitdə də Azərbaycan səsinin yerli və beynəlxalq arenalarda çatdırılmasında müstəsna rol oynayırlar".

### YENİ SƏDR VÜQAR ZİFƏROĞLU OLDU

Çıxışlardan sonra qurultayda Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibi formalaşdırılıb. Səsvermə yolu ilə formalaşdırılan İdarə Heyətinin tərkibinə 23 nəfər daxildir. İdarə Heyətinin seçilən üzvləri aşağıdakılardır: Hacıbəy Heydərli, Orxan Amaşov, Səadət Məmmədova, Nurşən Quliyev, Vüqar Rəhimzadə, Elşad Eyvazlı, Seyfəddin Hüseynli, Qalib İbrahimoğlu, Fərid Şahbazlı, Elçin Alıoğlu, Anar Tahirov, Vəfa Həmzəyeva, Elmira Musazadə, Hümbət Musayev, Vüqar Zifəroğlu, Müşfiq Ələsgərli, Əminə Yusifqızı, Bəhruz Məmmədzadə, Ayaz Mirzəyev, Fərid Pərdəşünas, Könül Niftəliyeva, Azər Həsrət, Yeganə Hacıyeva.



Toplantıda Mətbuat Şurasının sədri vəzifəsinə Vüqar Zifəroğlunun namizədliyi irəli sürülüb. O, yekdilliklə quruma yeni sədr seçilib.




# SOCAR Üstyurtda geoloji-kəşfiyyat işləri aparır

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Britaniyanın "British Petroleum" (bp) şirkəti Özbəkistanın Üstyurt bölgəsində altı blokda geoloji-kəşfiyyat işləri həyata keçirir. "Report" xəbər verir ki, bu barədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev investorlarla açıq dialoq zamanı bildirib.

"Xarici tərəfdaşlara təqdim etmək məqsədilə digər regionlarda əlavə 128 blok hazırlanıb", - o qeyd edib. Ş.Mirziyoyevin sözlərinə görə, ilkin hesablamalar bu blokların resurs potensialının 5,8 trilyon kubmetr qaz və 560 milyon ton maye karbohidrogendən ibarət olduğunu göstərir.

"Özbəkistan yalnız daxili enerji bazarı ilə kifayətlənmir. Azərbaycan və Qazaxıstanla birlikdə Xəzər dənizi üzərindən Avropaya "yaşıl enerji"nin tədarükü layihəsi artıq praktiki icra mərhələsinə daxil olub. Perspektivli istiqamətlər sırasında Əfqanıstan və Cənubi Asiya bazarları da müəyyənləşdirilib", - Ş.Mirziyoyev vurğulayıb.

Qeyd edək ki, 2025-ci il iyulun 24-də Özbəkistanın Energetika Nazirliyi, SOCAR və "Özbəkneftqaz" arasında Üstyurt neft-qaz bölgəsinin investisiya bloklarında (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) geoloji-kəşfiyyat işlərinin həyata keçirilməsini, eləcə də sonrakı karbohidrogen hasilatını əhatə edən Hasilatın Pay Bölgüsü Sazişi imzalanıb. bp şirkəti mövcud tərəfdaşların - SOCAR və "Özbəkneftqaz"ın hər birinin əvvəlcə 50% təşkil edən paylarından 20% alaraq, ümumilikdə 40%-lik payla bu sazişə qoşulub.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1341
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# LİMON BAZARININ TURŞ REALLIĞI

Azərbaycanda limon istehsalı daxili tələbatı tam qarşılaya bilmir. İdxalın həcmi azalsa da, xaricdən limon gətirilməsi davam edir. Xaricdən gətirilən limonun daha ucuz olması yerli istehsalçılara əlavə problemlər yaradır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda limon istehsalı olsa da, ölkə bu məhsula olan tələbatını tam yerli istehsal hesabına ödəyə bilmir. Bu ilin yanvar-iyul aylarında ölkəyə 13 milyon ABŞ dolları dəyərində 13 min ton limon və laym gətirilib. İdxal ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 4 faiz, kəmiyyət olaraq isə 10 faiz azalsa da, xaricdən limon tədarükü davam edir. Hesabat dövründə Azərbaycan Cənubi Afrikadan 5,6 milyon ABŞ dolları dəyərində 3 977 ton, Türkiyədən isə 5,5 milyon ABŞ dolları dəyərində 7 285 ton limon və laym alıb. Argentinadan 1,2 milyon dollar dəyərində 878 ton, İrandan 559 min dollar dəyərində 746 ton, Braziliyadan isə 123 min dollar dəyərində 60 ton məhsul idxal edilib. 2025-ci ildə Azərbaycana idxal edilmiş 20 939 ton limon və laymın 68 faizi Türkiyənin payına düşüb. Bəs ölkədə yetişdirilən limon niyə daxili tələbatı tam qarşılamır?

### "İSTEHSAL ƏSASƏN CƏNUB BÖLGƏSİNDƏ CƏMLƏNİB"

İqtisadçı-ekspert Rauf Qarayev bildirir ki, Azərbaycanda limon əsasən Lənkəran-Astara bölgəsində yetişdirilir və ölkə üzrə limon istehsalının təxminən 98 faizi cənub bölgəsinin payına düşür: "Əkin sahələri əsasən Lənkəran, Astara və Masallı rayonlarında yerləşir. Təkcə Lənkəranda AMAL layihəsi və digər proqramlar çərçivəsində yüzlərlə hektar yeni və bərpa edilmiş limon bağları mövcuddur. Naxçıvanda isə Ordubad limonu özünəməxsus xüsusiyyətləri ilə seçilir. Bu bölgədə limon əsasən istixana, qapalı və ya yarımqapalı bağlarda, eləcə də dibçəklərdə yetişdirilir. Zərif qabığı, xüsusi ətri və şirinvari dadı ilə seçilən Ordubad limonu nadirliyinə və keyfiyyətinə görə daha baha qiymətə satılır. Naxçıvan Muxtar Respublikasının istehsaldakı payı təxminən 1-1,5 faiz təşkil edir. Abşeron yarımadası və digər subtropik zonaların payı isə 0,5 faizdən azdır. Bununla yanaşı, qabaqcıl fermerlər tərəfindən Tovuz kimi qərb rayonlarında da uyğun şərait yaradılaraq limon yetişdirilir. Azərbaycan bağlarında daha çox şaxtaya nisbətən dözümlü və yerli iqlimə uyğunlaşmış Meyer, Yeni Gürcüstan, Lisbon, Villa-Franka və Udarnik sortlarına üstünlük verilir. Meyer ən çox yayılan sortlardan biridir".



Rauf Qarayev

## "BİR AĞACDAN 60 KİLOQRAMADƏK MƏHSUL ALMAQ OLUR"

R.Qarayevin sözlərinə görə, limon bitkisi düzgün aqrotexniki qulluq edildikdə uzunömürlü və yüksək məhsuldar olur: "Bitkinin ömrü 30-40 ilə çata bilər. İlk kommersiya məhsulu üçüncü ildən etibarən götürülür, tam məhsuldarlığa isə beşinci və ya altıncı illərdə çatır. Pik dövrdə bir ağacdan orta hesabla 40-60 kq, bir hektardan isə 30-40 ton məhsul götürmək mümkündür. Azərbaycanda yerli limon istehsalı son illərdə dövlət subsidiyaları və intensiv sitrus bağlarının salınması sayəsində orta hesabla 5 000-6 500 ton aralığında dəyişir. Yerli istehsal daxili tələbatın müəyyən hissəsini ödəsə də, ölkə hələ də əhəmiyyətli dərəcədə limon idxal edir. İllik idxalın təxminən 15-20 min ton olduğu bildirilir. Hektardan orta məhsuldarlıq isə 240-250 sentner, yəni 24-25 ton təşkil edir".

### LİMON HƏR YERDƏ YETİŞMİR

İqtisadçı-ekspert qeyd edir ki, limon istehsalının artırılması üçün digər ərazilərdə də imkanlar var. Lakin limon hər yerdə yetişən məhsul deyil: "Əgər təbii şərait və əkin sahələri kifayət etmirsə, istehsalı artırmaq üçün parniklərdən istifadə etmək mümkündür. Məhsulu təbii üsulla yetişdirməklə əlavə istixana sistemi ilə yetişdirmək arasında xərc baxımından fərq var. Bu halda məhsulun maya dəyəri yüksəlir və nəticədə yerli limon daha baha başa gələ bilər".

R.Qarayevin sözlərinə görə, limonun topdan satış qiyməti mövsümdən asılı olaraq bir kiloqram üçün orta hesabla 1,20-1,80 manat aralığında dəyişir: "35 ton məhsul üçün illik ümumi gəlir təxminən 42 000-63 000 manat təşkil edir. Hər il gübrə, dərman, suvarma və işçi qüvvəsi üçün hektara təxminən 4 000-6 000 AZN xərc tələb olunur. Tam məhsuldarlıq dövründə illik xalis mənfəətin 35 000-50 000 AZN/hektar səviyyəsində ola biləcəyi bildirilir. Dövlətin verdiyi 11 600 AZN-lik ilkin subsidiya və üçüncü ildən başlayan gəlirlər sayəsində qoyulan investisiyanın dördüncü ilin sonunda tamamilə amortizasiya etdiyi, beşinci ildən etibarən isə bağın tam xalis mənfəətlə işlədiyi bildirilir".

### UCUZ İDXAL YERLİ MƏHSULU SIXIŞDIRIR

R.Qarayev bildirir ki, xaricdən gətirilən limonlar daha ucuz olduğu üçün yerli istehsalı artırmaq bir çox fermer üçün sərfəli olmaya bilər: "Belə olduğu halda bazarda xaricdən gətirilən məhsul yenə də üstünlük təşkil edəcək. Üstəlik, məhsulu bazara çıxaranda yerli limon digər ölkələrdən gətirilən məhsullardan həm keyfiyyət göstəricilərinə görə üstün, həm də qiymət baxımından daha sərfəli olmalıdır. Hazırda limonun hər yerdə yetişməməsi və bəzi ərazilərdə onun üçün əlavə şərait yaradılmasının xərcləri artırması ölkənin digər dövlətlərdən limon idxalını davam etdirməsinə səbəb olur".

### FERMER LİMON ƏKMƏYƏ NİYƏ HƏVƏS GÖSTƏRMİR?


Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının direktoru Fərman Abdullayevin sözlərinə görə, Azərbaycanda limon plantasiyaları azdır: "Xaricdən limon idxalı yerli fermerlərin bu məhsulun istehsalına marağını azaldır. Ona görə də yeni əkin sahələri salınmır, genişmiqyaslı limon əkini aparılmır. Limon əsasən fərdi həyətyanı təsərrüfatlarda yetişdirilir. Böyük fermer təsərrüfatları yoxdur, yəni geniş miqyasda becərilmir".

F.Abdullayev qeyd edir ki, limonçuluğun inkişafına mane olan amillərdən biri də istehsalın xərc və zəhmət tələb etməsidir: "Limon ağacları qışda örtülməlidir və bu da əlavə zəhmət tələb edir. Eyni zamanda, bazarda məhsul yaxşı qiymətə satılmır. Xaricdən idxal çox olduğu üçün yerli limonların qiyməti aşağı düşür".





# OVÇULUĞA MARAQ AZALIR



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən indiyədək, ümumilikdə 5 073 vətəndaşa ovçuluq bileti verilib. Son illərin statistikası isə ovçuluq bileti alanların sayında ardıcıl azalma olduğunu göstərir.**

SEVİNC ABBASOVA

Təbiət qoynunda ov həyəcanı yaşamaq istəyən həvəskarlar üçün növbəti ov mövsümünə start verilib. Ov etmək istəyən vətəndaşlar ovlanmasına icazə verilən vəhşi heyvan və quşların siyahısı, ovlanma müddətləri və müəyyən edilmiş normalar barədə məlumatları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi internet səhifəsinin "Elanlar" bölməsindən əldə edə bilərlər.

Bəs, hazırda Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş ovçuların sayı nə qədərdir? Ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər hansı prosedurlardan keçməli və bunun üçün hansı sənədləri təqdim etməlidirlər? Ölkəmizdə ov həvəskarları daha çox hansı heyvan və quş növlərinin ovuna maraq göstərirlər?

### MÜRACİƏTLƏR ASAN XİDMƏT VASİTƏSİLƏ QƏBUL OLUNUR

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev "Kaspi" yə açıqlamasında bildirib ki, ovçuluq bileti almaq istəyən vətəndaşlar müəyyən edilmiş prosedurlardan keçməlidirlər. Ovçuluq bileti Bioloji Müxtəlifliyin Qorunması Xidməti tərəfindən verilir. Bunun üçün vətəndaşlar ərizə, ov silahının saxlanılması, gəzdirilməsi və istifadəsi hüququnu təsdiq edən şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin surətlərini, həmçinin 3x4 ölçüdə iki ədəd fotoşəkli 5 saylı Bakı "ASAN xidmət" mərkəzinə təqdim etməlidirlər. Sənədlər təqdim edildikdən sonra müraciət edən şəxslər hər həftənin cümə günü Xidmətdə keçirilən imtahanda iştirak edirlər. İmtahandan uğurla keçən vətəndaşlara ovçuluq bileti 5 saylı Bakı "ASAN xidmət" mərkəzində təqdim olunur.

### 5 073 NƏFƏR OVÇULUQ BİLETİ ALIB

R. Allahverdiyevin sözlərinə görə, nazirlik tərəfindən indiyədək ümumilikdə 5 073 vətəndaşa ovçuluq bileti verilib. Son illərin statistikası isə ovçuluq bileti alanların sayında ardıcıl azalma olduğunu göstərir. Belə ki, 2022-ci ildə 143, 2023-cü ildə 79, 2024-cü ildə 37, 2025-ci ildə isə 30 nəfər ovçuluq bileti əldə edib. 2026-cı ilin ilk doqquz ayı ərzində bu göstərici cəmi 15 nəfər olub.

Xidmət rəisinin müavini qeyd edib ki, cari ov mövsümündə vəhşi heyvanlardan qaban (çöl donuzu) və dovşanın, quş növlərindən isə qaz, ördək, qaşqaldaq və cüllütün ovlanmasına icazə verilib. Ovçuların üstünlük verdiyi növlərə gəlincə, onların daha çox ördək və qaşqaldaq ovuna maraq göstərdikləri bildirib.



Rəşad Allahverdiyev — Arzu Mustafayev

## Ən bahalı ov qaban, ən ucuz ov qaşqaldaqdır

Ekoloq, biomüxtəliflik üzrə ekspert Arzu Mustafayev deyib ki, imtahandan uğurla keçən vətəndaşlara bir il müddətinə ovçuluq vəsiqəsi verilir. Vəsiqənin illik rüsumu 24 manatdır.

Ovçuluq vəsiqəsi alındıqdan sonra növbəti mərhələ ov silahının əldə edilməsi və onun saxlanması üçün müvafiq sənədin alınmasıdır. A. Mustafayev bildirib ki, ov silahı Daxili İşlər Nazirliyi tərəfindən verilir və bu zaman vətəndaşa onun saxlanılması, gəzdirilməsi və istifadəsi hüququnu təsdiq edən şəhadətnamə təqdim olunur.

A.Mustafayevin sözlərinə görə, ovlanacaq növlərə uyğun ödəniş məbləğləri fərqlidir. Məsələn, qaşqaldağın ovlanması üçün ödəniş 31 qəpik, qaban üçün isə 22 manat təşkil edir. Ovçular ovlamaq istədikləri növlərə uyğun paket seçərək ödəniş edə bilərlər. Məsələn, üç qaşqaldaq və üç ördəkdən ibarət altı quş üçün 6 manat 11 qəpik ödənilir. "Biletdə cədvəl verilir, həmin cədvəldə paketə daxil olan heyvanlar qeyd olunur. Ovçu dəqiqləşdirir ki, quş, çaqqal, yoxsa qaban ovuna gedəcək. Daha sonra banka gedərək seçdiyi paketə uyğun ov biletinin dəyərini ödəyir və regional ekologiya idarəsinə müraciət edir. İdarəyə ovçuluq biletini, ov silahının sənədini, şəxsiyyəti təsdiq edən sənədi və ödəniş qəbzini təqdim etməlidir. Hər kəs qeydiyyatda olduğu rayon üzrə regional idarəyə müraciət etməlidir. Orada hazır ərizə forması olur və ov üçün müəyyən edilmiş günə icazə verilir", – deyə ekspert bildirib.

### OVÇULAR DAHA ÇOX SU QUŞLARI, QABAN OVUNA MARAQ GÖSTƏRİRLƏR

A.Mustafayev onu da qeyd edib ki, bəzi heyvanların ovlanması zamanı xüsusi təhlükəsizlik tələbləri nəzərə alınır. Belə ki, qaban təhlükəli heyvan olduğundan onun ovuna ən azı üç ovçu birlikdə getməlidir. Hər üç ovçunun da tələb olunan sənədləri olmalıdır. Ekspertin sözlərinə görə, eyni tələb ayı ovuna da şamil edilir. Lakin hazırda ayı ovuna icazə verilmədiyindən bu qayda tətbiq olunmur.

Azərbaycanda ovçuların üstünlük verdiyi növlərə gəlincə, ekspert bildirib ki, su quşları, qaban və digər iri məməlilər daha çox maraq doğurur. Xırda məməlilərdən çaqqal, dovşan və nutriyanın ovuna isə maraq nisbətən azdır.



## Qanuni ovçular azalır, brakonyerlik təhlükəsi qalır

A.Mustafayevin təxmininə görə, ölkədə ovçuların sayı təxminən 50 min nəfərdir. Ekspert hesab edir ki, ovçuluq sahəsində mövcud sistemsizlik qanuni ovçuların fəaliyyətinə mənfi təsir göstərir. O bildirib ki, əvvəllər ov mövsümü iyunun 1-2-də başlayırdı, lakin sonradan bu tarix oktyabrın 10-na keçirilib. Onun fikrincə, mövsümün başlanma tarixinin dəyişdirilməsi üçün əsaslandırma yoxdur və bu, qanuni ovçuluqla məşğul olmaq istəyən şəxslər üçün çətinlik yaradır. "Qanuni və mədəni ovçuluqla məşğul olmaq istəyən şəxslər mövcud vəziyyətə görə ova getməkdən çəkinirlər. Çünki onlar əlavə stres yaşamaq istəmirlər. Digər tərəfdən, ovçuluq təsərrüfatlarının ətraf ərazilərində yaşayan bəzi şəxslər satış məqsədilə heyvanları kütləvi şəkildə ovlayırlar. Nəticədə heyvanların limitsiz ovlanması halları baş verir", - deyə ekspert bildirib.

Ekspertin fikrincə, ov mövsümünün vaxtında açılması qanuni ovçuların prosesdə iştirakına və brakonyerlik hallarının aşkarlanmasına da kömək edir. Belə ki, ovçular qanunsuz ov faktları ilə rastlaşdıqda aidiyyəti qurumlara məlumat verir, videoçəkilişlər apararaq pozuntuların qeydə alınmasına yardım göstərirlər.

# GÖZƏLLİK ARZUSU FACİƏYƏ ÇEVRİLƏNDƏ



**Üç uşaq anasının estetik əməliyyatlardan sonra vəfat etməsi xəbəri bu sahədə nəzarətin gücləndirilməsinin, həkimlərin peşəkarlığının nə qədər vacib olduğunu bir daha gündəmə gətirdi. Baş verən hadisələr bir sıra suallara cavab istəyir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Estetik əməliyyatlar son illərdə geniş yayılsa da, bu əməliyyatların yaratdığı risklər barədə məlumatlar hələ də cəmiyyətdə lazımi qədər ciddi qəbul olunmur. Bir tərəfdən estetik əməliyyatların ciddi tibbi müdaxilə olduğu barədə maarifləndirmə aparılır, digər tərəfdən həkimlərin peşəkarlıqları ilə bağlı birmənalı olmayan fikirlər səslənir. Bəzi pasiyentlər isə araşdırma aparmadan əməliyyat qərarı verməkdə davam edirlər. Məsələn, bir müddət əvvəl üç uşaq anasının estetik əməliyyatlardan sonra vəfat etməsi xəbəri bu sahədə nəzarətin gücləndirilməsinin nə qədər vacib olduğunu bir daha gündəmə gətirdi. Baş verən hadisələr - ölüm halları, uğursuz əməliyyatlar "Estetik əməliyyatlar zamanı ölüm və ağır fəsadlarla nəticələnən halların əsas səbəbləri nələrdir?", "Mövcud nəzarət mexanizmləri kifayət qədər effektivdirmi?" kimi suallara cavab istəyir.

### TİBBİ VƏ HÜQUQİ ARAŞDIRMA ZƏRURƏTİ

Professor Adil Qeybullanın fikrincə, tibbi müdaxilə zamanı xəstənin sağlamlığına ciddi zərər dəydikdə və ya ölüm baş verdikdə, ilk növbədə hadisənin səbəbləri araşdırılmalıdır: "Əgər tibbi müdaxiləni həyata keçirən şəxsin müvafiq lisenziyası varsa, onun fəaliyyətində səhlənkarlıq və ya peşəkar səhv olub-olmaması müəyyən edilməlidir. Və ya əgər müdaxilə qeyri-peşəkar və ya müvafiq hüquqi səlahiyyəti olmayan şəxs tərəfindən həyata keçirilibsə, bu zaman hüquqi məsuliyyət məsələsi də gündəmə gəlir". Professor bildirir ki, xüsusilə, genişhəcmli estetik əməliyyatlardan, o cümlədən abdominoplastika, liposaksiya və kontur plastikası kimi müdaxilələrdən sonra xəstənin vəziyyətinə nəzarət mühüm əhəmiyyət daşıyır: "Belə əməliyyatlardan sonra orqanizmdə su-elektrolit balansının pozulması, susuzlaşma, tromboz və digər ciddi ağırlaşmalar yarana bilər. Bu səbəbdən əməliyyatdan sonra xəstəyə lazımi infuzion və dəstəkləyici müalicənin göstərilməsi, eləcə də onun müəyyən müddət tibbi nəzarətdə saxlanılması vacibdir. Xəstənin vəziyyəti tam qiymətləndirilmədən və lazımi nəzarət təmin edilmədən erkən evə buraxılması ciddi fəsadların yaranmasına səbəb ola bilər. Belə hallarda ölüm və ya ağırlaşmanın məhz hansı səbəbdən baş verdiyi - əməliyyatın özünün yaratdığı risklər, xəstənin fərdi vəziyyəti, əməliyyatdan sonrakı nəzarət və müalicə, yaxud həkimin səhlənkarlığı ilə bağlı olub-olmaması - tibbi və hüquqi araşdırma nəticəsində müəyyən edilməlidir".




## ƏMƏLİYYATA QƏRAR VERMƏZDƏN ÖNCƏ...

Hüquqşünas Ruslan Vəliyevin sözlərinə görə, estetik əməliyyat və ya kosmetoloji müdaxilə zamanı hər hansı ağırlaşma və ya ölüm baş verdikdə, ilk növbədə məsuliyyətin həkimin üzərinə düşüb-düşmədiyi araşdırılmalıdır: "Həkimin lazımi tibbi tədbirləri görüb-görmədiyini müəyyən etmək üçün müvafiq ekspertiza keçirilməlidir. Əgər ekspertiza nəticəsində hadisənin həkimin qarşısını almaq imkanında olmadığı, fors-major vəziyyət səbəbindən baş verdiyi müəyyən olunarsa, bu halda onun məsuliyyətdən azad edilməsi mümkün ola bilər. Həmçinin əgər həkimin həmin əməliyyatı həyata keçirmək üçün lazımi icazəsi, kvalifikasiyası və təcrübəsi olmadığı müəyyən edilərsə, bu hal məsuliyyəti ağırlaşdıran amil kimi qiymətləndirilə və daha sərt hüquqi sanksiyalara səbəb ola bilər".

Hüquqşünasın sözlərinə görə, klinikanın da maddi zərərə görə məsuliyyəti yarana bilər: "Vətəndaş dəymiş maddi zərərin ödənilməsini həm klinikadan, həm də həkimdən tələb edə bilər. İnzibati və cinayət məsuliyyəti isə əsasən tibbi müdaxiləni birbaşa həyata keçirən şəxsin hərəkətləri ilə bağlı qiymət-ləndirilir".

R.Vəliyev vətəndaşların da bu məsələlərdə diqqətli və məlumatlı olmasının vacibliyini vurğulayır: "İnsanlar hər hansı estetik əməliyyata qərar verməzdən əvvəl həkim haqqında kifayət qədər məlumat toplamalı, onun peşəkarlığını, təcrübəsini və müvafiq icazələrinin olub-olmadığını araşdırmalıdırlar". Hüquqşünas hesab edir ki, vətəndaşların özlərinin də hüquqi məsuliyyət və təhlükəsizlik məsələlərinə diqqətli yanaşması, qanunsuz fəaliyyət halları ilə qarşılaşdıqda aidiyyəti dövlət qurumlarına məlumat verməsi vacibdir: "Hüquq mədəniyyətinin formalaşdığı cəmiyyətlərdə vətəndaşlar gördükləri hüquq pozuntuları barədə aidiyyəti qurumlara məlumat verməkdən çəkinmirlər. Əks halda, problem aşkar edilən zaman artıq ciddi və geridönməz nəticələr ortaya çıxa bilər".

## "GÖRÜNÜŞÜMÜ DƏYİŞSƏM, HƏYATIM DA DƏYİŞƏCƏK"

Psixoloq Nigar Məmmədova hesab edir ki, insanların estetik əməliyyata müraciət etməsinin səbəbi yalnız gözəllik arzusu deyil. Bu qərarın arxasında müəyyən psixoloji amillər də dayanır: "Bəzi insanlar xarici görünüşlərində dəyişiklik etməklə özlərini daha rahat və güvənli hiss edəcəklərinə, daha çox diqqət görəcəklərinə inanırlar".

Psixoloqun fikrincə, sosial medianın da bu prosesə təsiri az deyil: "İnsanlar ideal görünüşlərlə tez-tez qarşılaşdıqda özlərini başqaları ilə müqayisə edir və xarici görünüşlərindən narazı qala bilirlər. Nəticədə estetik əməliyyatı özləri üçün daha cəlbedici görünüşə çatmağın yolu kimi görürlər. Bəzi hallarda isə insanda "görünüşümü dəyişsəm, həyatım da dəyişəcək" düşüncəsi yaranır".

Bununla belə, psixoloq hesab edir ki, hər estetik əməliyyatın arxasında psixoloji problem axtarmaq doğru deyil: "Bəzi hallarda insanlar tibbi ehtiyac və ya xəstəliklə əlaqədar estetik müdaxilələrə müraciət edirlər". Psixoloq hesab edir ki, estetik əməliyyatdan əvvəl və sonra psixoloji müayinənin aparılması faydalıdır: "Xüsusilə insanın əməliyyatdan gözləntiləri, öz görünüşü ilə bağlı narazılığının səbəbləri və qərarının həqiqi istəkdən qaynaqlanıb-qaynaqlanmadığı müəyyən edilməlidir. İnsan görünüşünü dəyişdirdikdən sonra da özündən narazı qala və təkrar əməliyyatlara ehtiyac duya bilər. Buna görə əsas diqqət insanın özünəinamının artırılmasına və özünü qəbul etməsinə yönəl-dilməlidir".



# YAŞLI NƏSİL RƏQƏMSAL DÜNYADA

**Rəqəmsallaşma gənc nəsil üçün vaxt və rahatlıq deməkdir. Lakin illərlə fərqli qaydada yaşayan yaşlılar üçün rəqəmsal xidmətlərə keçid heç də həmişə asan olmur. Onlar həm texniki, həm də psixoloji çətinliklərlə üzləşirlər.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Əvvəllər təqaüd vaxtı çatanda və ya kommunal xərclərin ödənilməsi zamanı böyüklərimiz səhər tezdən evdən çıxar, poçta və ya banka gedər, növbədə dayanıb işlərini həll edərdilər. İllərlə formalaşmış bu qayda onlar üçün artıq ənənəyə çevrilmişdi. İndi isə həmin işlərin böyük hissəsini evdən çıxmadan, mobil tətbiqlər və digər rəqəmsal platformalar vasitəsilə həyata keçirmək mümkündür. Təqaüdlər kartlara köçürülür, kommunal ödənişlər onlayn edilir, bank əməliyyatlarından həkim qəbuluna yazılmağa qədər bir çox xidmət rəqəmsal mühitə keçir. Gənc nəsil üçün bu, vaxt və rahatlıq deməkdir. Lakin illərlə fərqli qaydada yaşayan yaşlılar üçün rəqəmsal xidmətlərə keçid heç də həmişə asan olmur. Bəs yaşlı nəsil bu sürətli dəyişikliklərə necə uyğunlaşır? Rəqəmsal xidmətlərdən istifadə zamanı onları hansı çətinliklər və təhlükələr gözləyir?

## YAŞLI NƏSLİN MÜRƏKKƏB LABİRİNTİ...

"Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası" İctimai Birliyinin eksperti, Xəzər Universitetinin İT departamentinin rəhbəri Fərid Musayev deyir ki, illərlə işlərini kassa önündə canlı ünsiyyətlə həll etməyə, pullarını elə oradaca nağd şəkildə əllərində hiss etməyə alışmış bir nəsil üçün smartfon ekranı, QR və OTP kodları rahatlıq deyil, əksinə, mürəkkəb bir labirintdir: "Onlar rəqəmsallaşmaya öz istəkləri ilə deyil, zamanın tələbi ilə məcburən adaptasiya olunmağa çalışırlar. Yaşlı insanlar rəqəmsal ekosistemdə əsasən üç istiqamətdə çətinlik çəkirlər: interfeysin mürəkkəbliyi, terminologiya və texniki ehtiyatlılıq. Bank tətbiqlərindəki kiçik şriftlər, çoxmərhələli və mürəkkəb menyu strukturları, həmçinin "skan", "autentifikasiya", "QR-kod" kimi texniki terminlərin gündəlik dildə qarşılığının olmaması istifadəni çətinləşdirir. Bundan əlavə, rəqəmsal əməliyyatın anlıq və geri dönməz olması, məsələn, səhvən yanlış hesaba pul göndərmək qorxusu onlarda ciddi psixoloji təzyiq yaradır".



Fərid Musayev

## "YAŞLI İSTİFADƏÇİLƏR SOSİAL MÜHƏNDİSLİYİN QURBANI OLURLAR"

Mütəxəssis bildirir ki, rəqəmsal savadlılığın aşağı olması yaşlı insanları kiberdələduzluq qarşısında "açıq hədəf" halına gətirir: "Kibercinayətkarlar məhz texnoloji proseslərin necə işlədiyini bilməyən bu qrupun zəif nöqtələrindən istifadə edirlər. Onlayn mühitin "virtual" olması, fiziki dünyadakı təhlükəsizlik qaydalarının rəqəmsal mühitdə necə dəyişdiyini anlamamaq onları manipulyasiyalara daha həssas edir. Təcrübə göstərir ki, yaşlı istifadəçilər əsasən sosial mühəndisliyin qurbanı olurlar. Yəni telefonda özünü rəsmi şəxs, məsələn, bank əməkdaşı və ya polis kimi təqdim edən şəxslərə şəxsi məlumatlarını, parol və PİN kodlarını verirlər. Digər səhvlərdən biri güclü parollardan istifadə etməmələridir. Sadə, təxmin edilə bilən və ya eyni parolu bütün platformalarda istifadə edirlər. Üçüncü məsələ isə şübhəli linklərə klikləmələridir. "Hədiyyə qazandınız" və ya "Hesabınız bloklanıb" tipli saxta mesajlardakı linklər vasitəsilə məlumatlarının oğurlanmasına şərait yaradırlar".

### RƏQƏMSAL İZOLYASİYA RİSKİ

Ekspertin sözlərinə görə, xidmətlərin tamamilə onlayn olması bu qrup üçün "rəqəmsal kənarlaşma" riskini artıra bilər: "Bu, ciddi sosial problemdir. Dövlət xidmətləri, nəqliyyat, bankçılıq kimi sahələrin tamamilə onlaynlaşdırılması texnologiyaya adaptasiya ola bilməyən yaşlı insanların "rəqəmsal izolyasiyaya" düşməsinə səbəb ola bilər. Əgər fiziki ofislər və canlı dəstək xidmətləri minimuma endirilərsə, bu qrup əsas ehtiyaclarını qarşılamaq üçün ya yaxınlarından tam asılı vəziyyətə düşəcək, ya da sosial və iqtisadi proseslərdən geri qalacaq".

### "TƏTBİQLƏR SADƏ, BÖYÜK ŞRİFTLİ HAZIRLANMALIDIR"

F.Musayev vurğulayır ki, problemin həlli həm texnoloji, həm də təhsil yönümlü yanaşma tələb edir: "Texnoloji şirkətlər tətbiqləri yaşlılar üçün daha sadə, böyük şriftli, səslə idarə oluna bilən və minimal addımlı hazırlamalıdırlar. Xüsusi təlim proqramları tətbiq edilməli, dövlət və özəl sektor tərəfindən yaşlılar üçün sadə dildə keçirilən kibersavadlılıq dərsləri təşkil olunmalıdır. Banklar və dövlət qurumları isə yaşlı istifadəçilər üçün daha yavaş, daha izahlı və əlavə təhlükəsizlik imkanları olan sistemlər qurmalıdırlar. Məsələn, şübhəli əməliyyat zamanı əlavə səsli təsdiq tələb edən mexanizmlərdən istifadə oluna bilər".

### "ÖZLƏRİNİ YETƏRSİZ HİSS EDİRLƏR"

Mövzunun psixoloji tərəfinə toxunan psixoloq Aysel Qafarova hesab edir ki, rəqəmsal dünyaya uyğunlaşmaqda çətinlik çəkmək bu qrupda özünəinamın azalmasına və sosial təcrid hissinin güclənməsinə səbəb ola bilər: "Yaşlılar rəqəmsal dünyaya uyğunlaşmaq və gündəlik ehtiyaclarını müstəqil şəkildə qarşılamaq istəyirlər. Bacarmadıqlarında özlərini yetərsiz hiss edə bilərlər. Xarakterindən asılı olaraq, bu vəziyyət müxtəlif psixoloji və sosial çətinliklərə, hətta insanın özünü təcrid etməsinə səbəb olur".

Psixoloqun sözlərinə görə, rəqəmsal mühitdə yaşanan çətinliklər yalnız texniki bacarıqlarla bağlı deyil: "Uyğunlaşmaqda çətinlik çəkənlər digər insanlardan asılı vəziyyətə də düşə bilərlər. "Bacarmıram" hissi yaşamağa başlayırlar və bu da özünəinamın azalmasına səbəb olur. 2025-ci ildə Böyük Britaniyada 65 yaşdan yuxarı 3 300 nəfərin iştirakı ilə aparılan araşdırmada respondentlərin 17 faizi rəqəmsal olaraq tam təcrid olunmuş, 30 faizi isə internetdən məhdud istifadə edən qrup kimi müəyyənləşdirilib".

### "DÖVR DƏYİŞSƏ DƏ, MƏN DƏ BU DÖVRDƏ VARAM"

A.Qafarova qeyd edir ki, keçmişdə yaşanan kiberdələduzluq halları ilə bağlı xəbərlər də bu qrupda narahatlığı artırır: "Bizim dəstəyimiz yalnız onları istiqamətləndirmək və ya onların yerinə hansısa işi həll etməkdən ibarət olmamalıdır. Əsas məqsəd onların öz ehtiyaclarını sərbəst şəkildə qarşılamaq üçün rəqəmsal dünyaya inteqrasiya olmasına imkan yaratmaqdır. Bu zaman onlar özlərini təcrid etməz və "dövr dəyişsə də, mən də bu dövrdə varam" hissini yaşayarlar".

Psixoloq hesab edir ki, rəqəmsal adaptasiya üçün canlı dəstək imkanları ilə yanaşı, praktiki təlimlərin təşkili də vacibdir.



Aysel Qafarova

TƏCRÜBƏLİ İSTİFADƏÇİLƏR DAHA ÇOX KEYFİYYƏTƏ, YENİ BAŞLAYANLAR İSƏ QİYMƏTƏ ÜSTÜNLÜK VERİRLƏR

# BAHALI ZÖVQƏ MARAQ ARTIB

Azərbaycana gətirilən siqarların sayı 49 faiz azalsa da, idxalın dəyəri 46 faiz artıb. Satıcılar premium məhsullara marağın gücləndiyini, iqtisadçılar isə bu artımın istehlakçı sayından çox, bazarın strukturundakı dəyişikliklərlə bağlı olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda siqar idxalında maraqlı mənzərə yaranıb. Ölkəyə gətirilən siqarların sayı azalsa da, onlara ödənilən vəsait artıb. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, bu ilin yanvar-iyul aylarında ölkəyə 745 min ABŞ dolları dəyərində 2,02 milyon ədəd siqar idxal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 46 faiz artım, kəmiyyət baxımından isə 49 faiz azalma deməkdir. Bəs Azərbaycanda siqara maraq son dövrdə necə dəyişib?

## SİQAR SEÇİMİNDƏ ƏSAS AMİLLƏR

Cigars.az-ın icraçı direktoru Tural İsmayılovun sözlərinə görə, son dövrdə Azərbaycanda siqarlara maraq artıb: "Xüsusilə siqarı həyat tərzi və premium təcrübənin bir hissəsi kimi qəbul edən müştərilərin sayında artım var. Seçimdə Kuba siqarları hələ də xüsusi yer tutur. Bununla yanaşı, Dominikan Respublikası və Nikaraqua mənşəli siqarlara da maraq var. Müştərilər artıq yalnız tanınmış markalara deyil, fərqli dad profillərinə və şəxsi zövqlərinə uyğun məhsullara da maraq göstərirlər. Siqar seçimində əsas amillər marka, keyfiyyət, mənşə ölkəsi və qiymətdir. Təcrübəli istifadəçilər daha çox tütünün keyfiyyətinə, dad profilinə, gücünə və ölçüsünə diqqət yetirirlər. Yeni başlayan müştərilər üçün isə marka və qiymət daha ön planda ola bilər".

## 12 MANATDAN 1300 MANATADƏK...

T.İsmayılovun fikrincə, həm orta qiymət seqmentinə, həm də premium və super-premium məhsullara tələbat var: "Son dövrdə daha yüksək qiymət seqmentində olan, keyfiyyətli məhsullara marağın artdığını müşahidə edirik".

Bakıda araşdırılan məhsullar üzrə bir ədəd siqarın qiyməti təxminən 14 manatdan başlayaraq 135 manatadək yüksəlir. Nisbətən münasib qiymət seqmentində Kuba mənşəli "Quintero Favoritos" 14 manat, Nikaraqua mənşəli "Cusano Nicaragua Robusto" isə təxminən 16 manatdır. 20-35 manat aralığında da müxtəlif premium məhsullar təqdim olunur. Kuba mənşəli "H.Upmann Coronas Major" təxminən 24 manatdır. Daha yüksək qiymət seqmentində Nikaraqua mənşəli "AJ Fernandez" markasının müxtəlif modelləri 29-50 manat, "Aging Room" xəttinin bəzi məhsulları isə 48 manat civarında təklif olunur. "Villiger" markasının ayrı-ayrı modellərində qiymətlər 70-80 manata qədər yüksəlir. Kuba siqarlarında isə qiymət daha yüksəkdir. "Cohiba Siglo 2" təxminən 93 manat, "Cohiba Medio Siglo" isə 135 manat civarındadır.




## İdxalın dəyəri niyə artır?

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, burada diqqət edilməli əsas məqam idxalın fiziki həcmi azaldığı halda, dəyərinin artmasıdır. Bu, bir ədəd siqarın orta idxal qiymətinin əhəmiyyətli dərəcədə yüksəldiyini göstərir: "Bu vəziyyət bazarda sadəcə qiymət artımından daha çox, idxal olunan məhsulların strukturunda dəyişiklik ehtimalını gündəmə gətirir. Hesabat dövründə Almaniyadan idxal 1,17 milyon ədədə çatıb. Paralel olaraq, Dominikan Respublikasından idxalın dəyəri yeddi dəfə, Nikaraquadan idxalın dəyəri isə 11 dəfə artıb. Digər tərəfdən, Kubadan gətirilən siqarların həm dəyərində, həm də sayında azalma qeydə alınıb. Müxtəlif ölkələrdən gətirilən siqarların qiymət və keyfiyyət səviyyəsi eyni deyil. Ona görə də müəyyən ölkələrin və ya daha yüksək qiymət seqmentində olan məhsulların idxalda payının artması ümumi dəyəri yüksəldə bilər. Məsələnin digər tərəfi isə odur ki, logistika, daşınma və digər idxal xərclərindəki dəyişikliklər də məhsulun son maya dəyərinə təsir göstərir".

G.Hüseynova premium siqarlara marağın artması ehtimalını da istisna etmir: "İdxalın ölkələr üzrə strukturunda baş verən dəyişiklik müəyyən analizlər aparmağa imkan verir. Dominikan Respublikası və Nikaraqua kimi siqar istehsalı ilə tanınan ölkələrdən idxalın artması bazarda daha fərqli və nisbətən yüksək qiymətli məhsullara marağın yarandığını göstərir. Bu da istehlakçı seçimlərində dəyişiklik ehtimalını gündəmə gətirir".

## "İDXAL ARTIMI İSTEHLAKÇI SAYINI GÖSTƏRMİR"

İqtisadçı qeyd edir ki, idxal statistikasındakı artımı birbaşa siqar çəkənlərin sayının artması kimi qiymətləndirmək düzgün olmaz: "Siqardan istifadə edənlərin sayına dair ayrıca və dolğun statistika mövcud deyil. İdxalın dəyərinin artması istehlakçı sayının çoxalması ilə yanaşı, daha bahalı məhsulların idxalı, qiymət dəyişiklikləri və məhsul strukturunun dəyişməsi ilə də bağlı ola bilər. Hazırda bazarda siqarların qiymətləri məhsulun mənşəyindən, markasından və kateqoriyasından asılı olaraq geniş diapazonda dəyişir. Premium seqmentdə bir ədəd siqarın qiyməti adi tütün məhsulları ilə müqayisədə dəfələrlə yüksəkdir. Buna görə də say baxımından az miqdarda, lakin daha bahalı məhsulun idxalı ümumi idxal dəyərinin yüksəlməsinə ciddi təsir göstərə bilər".

G.Hüseynovanın fikrincə, 2026-cı ilin ilk yeddi ayındakı statistikanı ölkəmizdə siqar bazarında kəmiyyət artımından daha çox, struktur dəyişiklikləri baxımından qiymətləndirmək olar: "Əsas məsələ siqarların sayının azalmasına baxmayaraq, idxalın dəyərinin yüksəlməsidir. Yəni mövcud rəqəmlər əsasında "siqar istehlakı kəskin artıb" nəticəsinə gəlməkdənsə, daha az sayda, lakin daha yüksək dəyərə malik məhsulların idxalının artdığını demək daha əsaslıdır. Bunun davamlı tendensiya olub-olmadığını isə ilin sonrakı aylarında və daha uzunmüddətli statistikada görmək mümkün olacaq".



Günay Hüseynova

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
17 OKTYABR ŞƏNBƏ 2026
www.kaspi.az

Yeniyetmə boksçular arasında U-17 Avropa çempionatında əldə edilən nəticələr Azərbaycan boksunun gələcəyi üçün ümid verdi. Böyük idmançılar məhz belə yarışlarda yetişir, beynəlxalq təcrübə toplayır və özlərinə inam qazanırlar.

# GƏLƏCƏK ÜÇÜN ÜMİDVERİCİ NƏTİCƏLƏR



Azərbaycanda boksun özünəməxsus yeri var. Bu idman növündə uzun illərdir ölkəmiz beynəlxalq arenada uğurlar qazanır. Avropa və dünya çempionatlarında əldə olunan medallar, qazanılan nəticələr boksun Azərbaycan idmanının ənənələri arasında möhkəm yer tutduğunu göstərir. Təsadüfi deyil ki, Olimpiya oyunlarında da hər zaman medal ümidlərimiz arasında rinq ustalarının adı çəkilir.

Təbii ki, böyük arenalarda qazanılan uğurların arxasında illərlə davam edən zəhmət dayanır. Bu baxımdan, yeniyetmə və gənclərin beynəlxalq yarışlarda göstərdiyi nəticələrə də xüsusi diqqət yetirmək lazımdır. Çünki bugünkü gənc boksçular sabah böyüklər arasında ölkəmizi təmsil edəcək, Azərbaycan boksunun ənənələrini davam etdirəcəklər. Onların çıxışına nəzər yetirdikdə isə gələcəyə ümidlə baxmaq üçün kifayət qədər səbəb tapmaq mümkündür.

Bu mənada son ciddi nəticələrdən biri Monteneqronun Budva şəhərində keçirilən U-17 Avropa çempionatında əldə olundu. Azərbaycan millisi turniri iki qızıl, üç gümüş və üç bürünc olmaqla, ümumilikdə səkkiz medalla başa vurdu. Bu nəticə sadəcə medal sayına görə sevindirici deyil. Gənc boksçularımızın Avropa səviyyəsində göstərdiyi mübarizə və qazandığı uğurlar Azərbaycan boksunun gələcəyinə daha böyük ümidlə baxmaq üçün ciddi əsas yaradır.

**BUDVADA SƏKKİZ MEDAL**

U-17 Avropa çempionatı oktyabrın 1-dən 11-dək keçirildi. Qitənin müxtəlif ölkələrindən yeniyetmə idmançıların qatıldığı yarışda Azərbaycan millisi də qüvvəsini sınadı. 40 ölkədən 473 boksçunun mübarizə apardığı çempionatda təmsilçilərimiz ölkəmizi layiqincə təmsil edərək ümumilikdə səkkiz medal qazanmağı bacardılar.

Boksçularımızdan ikisi fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Avropa çempionu adını qazandı. Daha üç idmançımız finala qədər irəliləsə də, həlledici qarşılaşmalarda məğlub olub gümüş medalla kifayətləndilər. Digər üç təmsilçimiz yarışı bürünc medalla başa vurdu. Bu, milli komandamızın təkcə ayrı-ayrı çəkilərdə deyil, bütövlükdə komanda olaraq yaxşı nəticə göstərdiyini deməyə əsas verir.

## Beş medalın üç rəngi

Budvadakı medalların əksəriyyəti oğlan boksçularımızın aktivindədir. Onların arasında isə ən yaxşı nəticəni Məhəmmədəli İstamov göstərdi. 57 kq çəki dərəcəsində mübarizə aparan idmançımız finala qədər inamla irəliləyərək qızıl medal uğrunda görüşdə İngiltərə təmsilçisi Con Elamla üz-üzə gəldi. Gərgin keçən döyüşdə rəqibinə 4:1 hesablı qərarı ilə qalib gələn İstamov Avropa çempionu adını qazandı.

46 kq-da Həsrət Məmmədov və 52 kq-da İsmayıl Nəsirzadə də finala qədər irəliləməyə nail oldular. Həsrət həlledici görüşdə Rumıniya təmsilçisi Kristi Kaşu ilə, İsmayıl isə İngiltərə boksçusu Şaylo Makleodla qarşılaşdı. Hər iki idmançımız həlledici qarşılaşmada layiqli mübarizə aparsalar da, kiçik səhvlər onların qızıl medal əldə etməsinə mane oldu. Bununla belə qitə birinciliyində əldə olunan gümüş medal karyeralarının hazırkı mərhələsində onlar üçün böyük motivasiya olmalıdır.

Qardaş Rəhimov (54 kq) və Hidayət Məmmədov (70 kq) isə yarımfinal mərhələsinədək irəliləyərək bürünc medalları təmin etdilər.

Beləliklə, oğlan boksçularımız çempionatı bir qızıl, iki gümüş və iki bürünc olmaqla, ümumilikdə beş medalla başa vurdular. Bu nəticə yeniyetmə boksçularımızın müxtəlif çəki dərəcələrində qitənin güclü idmançıları ilə rəqabət aparmaq imkanlarını bir daha ortaya qoydu.

## Qızlarımız da vətənə medalla qayıtdılar

Qızlarımızın da Budvadakı çıxışı xüsusi diqqətə layiqdir. Bəzi beynəlxalq yarışlarda qadın idmançılarımızın nəticələri gözləntiləri doğrultmasa da, boksçu qızlarımız Avropa səviyyəsində güclü rəqiblərlə mübarizə aparmağa hazır olduqlarını sübut etdilər. Onlar ümumilikdə bir dəst medalla geri qayıtdılar.

57 kq çəki dərəcəsində mübarizə aparan Cəmilə Muradlı bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxdı. Finalda Almaniya idmançısı Aliya İbrahimi tam üstünlüklə məğlub edən gənc idmançı Azərbaycan bayrağını ən yüksək pilləyə qaldıran iki idmançımızdan biri oldu.

66 kq çəki dərəcəsində çıxış edən Səma Abbasova da finala qədər irəliləməyi bacardı. O, qızıl medal uğrunda görüşdə Türkiyə idmançısı Ada Eybeylə dueldə məğlub olaraq "gümüş"lə kifayətləndi.

+80 kq çəki dərəcəsində mübarizə aparan Xumar Cəfərli isə bürünc medal qazandı. Beləliklə, qız boksçularımız Budvada bir qızıl, bir gümüş və bir bürünc olmaqla, ümumilikdə üç medal əldə etdilər.

Budvada əldə edilən nəticələr Azərbaycan boksunun gələcəyi adına ümidverici nəticədir. Böyük idmançılar məhz belə yarışlarda yetişir, beynəlxalq təcrübə toplayır və özlərinə inam qazanırlar. Yeniyetmə yaşında Avropa çempionu olmaq, finala yüksəlmək və ya fəxri kürsüyə qalxmaq gənc boksçular üçün növbəti uğurlara aparan yolda mühüm addımdır. İndi əsas məsələ bu nəticələrin davamlı olmasına və gələcəkdə böyüklər arasında da Azərbaycan bayrağının yüksəldilməsinə nail olmaqdır.